| 1.5.4.2 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 15 928 995 |
| 1.5.4.3 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 6 566 880 |
| 1.5.4.4 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 14 554 233 |
| 1.5.4.5 | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 12 383 461 |
| 1.5.4.6 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 10 454 961 |
| 1.5.4.7 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 3 816 868 |
| 1.5.4.8 | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti | 9 041 294 |
| 1.5.4.9 | İcbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 263 820 170 |
| 1.5.4.10 | Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 10 617 632 |
| 1.5.4.11 | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 12 046 514 |
| 1.5.4.12 | Səhiyyə sahəsinə aid olan digər tədbirlər | 5 000 000 |
| 1.5.4.13 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 8 387 997 |
| 1.6 | Sosial müdafiə və sosial təminat | 4 281 452 049 |
| 1.6.1 | Sosial müdafiə | 474 039 972 |
| 1.6.1.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 342 632 165 |
| 1.6.1.2 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 379 142 |
| 1.6.1.3 | Sosial müdafiə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 20 120 |
| 1.6.1.4 | Sosial müdafiə və digər sosial təminat xərcləri | 4 409 520 |
| 1.6.1.5 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 125 599 025 |
| 1.6.2 | Sosial təminat | 5 672 694 |
| 1.6.2.1 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 531 778 |
| 1.6.2.2 | Yerli icra hakimiyyəti orqanları | 4 703 783 |
| 1.6.2.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 437 133 |
| 1.6.3 | Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 15 791 |
| 1.6.3.1 | Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 15 791 |
| 1.6.4 | Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 801 723 592 |
| 1.6.4.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 637 786 204 |
| 1.6.4.2 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 353 920 265 |
| 1.6.4.3 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 5 112 776 |
| 1.6.4.4 | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 467 770 000 |
| 1.6.4.5 | Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 1 200 000 |
| 1.6.4.6 | Sosial müdafiə və digər sosial təminat xərcləri | 878 525 |
| 1.6.4.7 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (paralimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 300 960 |
| 1.6.4.7.1 | Əqli imkanları məhdud olan idmançılar üzrə | 200 640 |
| 1.6.4.7.2 | Fiziki imkanları məhdud olan idmançılar üzrə | 100 320 |
| 1.6.4.8 | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs | 53 993 701 |
| 1.6.4.9 | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs | 41 794 893 |
| 1.6.4.10 | Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1 329 240 |
| 1.6.4.11 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 237 637 028 |
| 1.7 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 463 400 496 |
| 1.7.1 | Mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 198 313 531 |
| 1.7.1.1 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 166 798 917 |
| 1.7.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 496 011 |
| 1.7.1.3 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 780 234 |
| 1.7.1.4 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 265 122 |
| 1.7.1.5 | Beynəlxalq Muğam Mərkəzi | 1 496 369 |
| 1.7.1.6 | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 2 873 040 |
| 1.7.1.7 | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası | 7 443 302 |
| 1.7.1.8 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 2 486 436 |
| 1.7.1.9 | Yerli icra hakimiyyəti orqanları | 2 446 436 |
| 1.7.1.10 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 13 227 664 |
| 1.7.2 | Televiziya, radio və nəşriyyat | 61 309 229 |
| 1.7.2.1 | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 36 108 684 |
| 1.7.2.2 | Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı | 21 578 000 |
| 1.7.2.3 | "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (dövlət sifarişlərinin yerinə yetirilməsi) | 2 352 890 |
| 1.7.2.4 | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya | 655 083 |
| 1.7.2.5 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 272 100 |
| 1.7.2.6 | Radio və televiziya redaksiyalarının saxlanılması | 26 741 |
| 1.7.2.7 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 315 731 |
| 1.7.3 | Bədən tərbiyəsi və gənclər siyasəti | 40 782 205 |
| 1.7.3.1 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 39 141 818 |
| 1.7.3.1.1 | Bədən tərbiyəsi və idmanın təşkili | 27 811 791 |

*Ardı 5-ci səh.*

# "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 4-cü səh.*

| | | |
|---|---|---|
| 1.7.3.1.2 | Gənclər siyasəti | 11 330 027 |
| 1.7.3.2 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 1 051 062 |
| 1.7.3.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 589 325 |
| 1.7.4 | Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 202 |
| 1.7.4.1 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 22 202 |
| 1.7.5 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 162 973 329 |
| 1.7.5.1 | Heydər Əliyev Mərkəzi | 10 892 898 |
| 1.7.5.2 | Azərbaycanda Atatürk Mərkəzi | 474 369 |
| 1.7.5.3 | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 285 848 |
| 1.7.5.4 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 26 351 451 |
| 1.7.5.5 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 491 117 |
| 1.7.5.6 | Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 278 417 |
| 1.7.5.7 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 6 532 328 |
| 1.7.5.8 | Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı | 6 323 696 |
| 1.7.5.9 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 1 056 431 |
| 1.7.5.10 | Siyasi partiyalara verilən maliyyə yardımı | 5 000 000 |
| 1.7.5.11 | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 7 548 869 |
| 1.7.5.12 | Nizami Gəncəvi Beynəlxalq Mərkəzi | 3 511 200 |
| 1.7.5.13 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 10 659 987 |
| 1.7.5.14 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 324 939 |
| 1.7.5.15 | "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs | 6 216 070 |
| 1.7.5.16 | "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs | 237 134 |
| 1.7.5.17 | "Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)" publik hüquqi şəxs | 8 269 692 |
| 1.7.5.18 | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində "Azərbaycan Milli Antidopinq Agentliyi" publik hüquqi şəxs | 3 234 830 |
| 1.7.5.19 | "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs | 8 860 237 |
| 1.7.5.20 | "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi" publik hüquqi şəxs | 3 510 353 |
| 1.7.5.21 | "Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs | 2 021 515 |
| 1.7.5.22 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində "Azərbaycan Diasporuna Dəstək Fondu" publik hüquqi şəxs | 1 007 282 |
| 1.7.5.23 | "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs | 6 429 396 |
| 1.7.5.24 | "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs | 7 341 671 |
| 1.7.5.25 | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs | 7 000 000 |
| 1.7.5.26 | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxs | 4 460 181 |
| 1.7.5.27 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 1 007 482 |
| 1.7.5.28 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 4 583 382 |
| 1.7.5.29 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 9 111 099 |
| 1.7.5.30 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 245 051 |
| 1.7.5.31 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 1 996 365 |
| 1.7.5.32 | Yerli icra hakimiyyəti orqanları | 2 710 039 |
| 1.8 | Mənzil və kommunal təsərrüfatı | 332 420 158 |
| 1.8.1 | Mənzil təsərrüfatı | 66 576 294 |
| 1.8.1.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 66 013 171 |
| 1.8.1.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 563 123 |
| 1.8.2 | Kommunal təsərrüfatı | 136 157 134 |
| 1.8.2.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 400 000 |
| 1.8.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 499 319 |
| 1.8.2.3 | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 41 000 000 |
| 1.8.2.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 80 596 727 |
| 1.8.2.5 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 7 661 088 |
| 1.8.3 | Su təsərrüfatı | 26 718 023 |
| 1.8.3.1 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 6 743 097 |
| 1.8.3.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 19 974 926 |
| 1.8.4 | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 102 968 707 |
| 1.8.4.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 148 947 |
| 1.8.4.2 | "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs | 12 899 971 |
| 1.8.4.3 | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxs | 4 704 482 |
| 1.8.4.4 | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 34 984 802 |
| 1.8.4.5 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 2 586 572 |
| 1.8.4.6 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 44 643 933 |
| 1.9 | Kənd təsərrüfatı | 947 619 326 |
| 1.9.1 | Kənd təsərrüfatı tədbirləri | 483 823 278 |
| 1.9.1.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 2 526 611 |
| 1.9.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 431 249 479 |
| 1.9.1.3 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 9 970 306 |
| 1.9.1.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 6 470 000 |
| 1.9.1.5 | Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 26 401 881 |
| 1.9.1.6 | Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər | 1 150 000 |
| 1.9.1.7 | Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 5 000 000 |
| 1.9.1.8 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 1 055 001 |
| 1.9.2 | Baytarlıq | 36 152 986 |
| 1.9.2.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 35 164 754 |
| 1.9.2.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 988 232 |
| 1.9.3 | Meliorasiya | 423 490 426 |
| 1.9.3.1 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 408 197 740 |
| 1.9.3.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 15 292 686 |
| 1.9.4 | Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 4 152 636 |
| 1.9.4.1 | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 152 636 |
| 1.10 | Ətraf mühitin mühafizəsi | 358 566 531 |
| 1.10.1 | Bioloji zənginliyin qorunması | 7 992 884 |
| 1.10.1.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 428 889 |
| 1.10.1.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 7 218 981 |
| 1.10.1.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 345 014 |
| 1.10.2 | Torpaq və yerquruluşu | 18 300 000 |
| 1.10.2.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 14 800 000 |
| 1.10.2.2 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxs | 3 500 000 |
| 1.10.3 | Hidrometeorologiya tədbirləri | 9 183 025 |
| 1.10.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 670 086 |
| 1.10.3.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 8 484 843 |
| 1.10.3.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 28 096 |
| 1.10.4 | Meşə təsərrüfatı | 16 689 340 |
| 1.10.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 15 240 699 |
| 1.10.4.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 1 448 641 |
| 1.10.5 | Balıqçılıq və ovçuluq | 1 346 105 |
| 1.10.5.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 329 191 |
| 1.10.5.2 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 16 914 |
| 1.10.6 | Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 304 812 399 |
| 1.10.6.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 9 508 457 |
| 1.10.6.2 | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 37 500 000 |
| 1.10.6.3 | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 3 454 755 |
| 1.10.6.4 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 400 000 |
| 1.10.6.5 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 238 738 149 |
| 1.10.6.6 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 15 211 038 |
| 1.10.7 | Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 242 778 |
| 1.10.7.1 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 242 778 |
| 1.11 | İqtisadi fəaliyyət | 9 320 335 950 |
| 1.11.1 | Nəqliyyat və rabitə | 325 614 979 |
| 1.11.1.1 | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 5 000 000 |
| 1.11.1.2 | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 38 416 000 |
| 1.11.1.3 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 137 960 |
| 1.11.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 628 172 |
| 1.11.1.5 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 499 253 |
| 1.11.1.6 | "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 103 000 000 |
| 1.11.1.7 | Yenidən təşkil edilmiş Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxs | 31 274 000 |
| 1.11.1.8 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Dəniz və Liman Agentliyi" publik hüquqi şəxs | 6 239 600 |
| 1.11.1.9 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxs | 6 000 000 |
| 1.11.1.10 | Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi | 19 000 000 |
| 1.11.1.11 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 47 165 892 |
| 1.11.1.12 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 53 254 102 |
| 1.11.2 | İqtisadi və kommersiya fəaliyyəti | 41 603 004 |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 41 603 004 |
| 1.11.3 | Tikinti və şəhərsalma | 7 461 454 454 |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 054 454 |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 660 400 000 |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 4 800 000 000 |
| 1.11.4 | Geodeziya və faydalı qazıntılar | 6 559 683 |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 169 700 |
| 1.11.4.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxs | 3 988 983 |
| 1.11.4.3 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxs | 2 401 000 |
| 1.11.5 | Yanacaq və enerji kompleksi | 42 126 |
| 1.11.5.1 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 42 126 |
| 1.11.6 | İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 1 485 061 704 |
| 1.11.6.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 3 636 457 |
| 1.11.6.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 3 636 457 |
| 1.11.6.2 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların çap edilməsi) | 50 725 073 |
| 1.11.6.3 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması) | 788 132 |
| 1.11.6.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 256 314 |
| 1.11.6.5 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 27 496 850 |
| 1.11.6.6 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 11 547 923 |
| 1.11.6.7 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 100 000 000 |
| 1.11.6.7.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 87 700 000 |
| 1.11.6.7.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 12 300 000 |
| 1.11.6.8 | Azərbaycan İnvestisiya Holdinqi | 9 000 000 |
| 1.11.6.9 | Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu | 10 300 000 |
| 1.11.6.10 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 364 455 |
| 1.11.6.11 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 758 307 |
| 1.11.6.12 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs | 700 000 |
| 1.11.6.13 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs | 1 100 000 |
| 1.11.6.14 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs | 1 400 000 |
| 1.11.6.15 | "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs | 9 000 000 |
| 1.11.6.16 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs | 2 766 093 |
| 1.11.6.17 | "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi" publik hüquqi şəxs | 1 969 919 |
| 1.11.6.18 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO)" publik hüquqi şəxs | 5 004 100 |
| 1.11.6.19 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs | 6 926 700 |
| 1.11.6.20 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" publik hüquqi şəxs | 5 750 |
| 1.11.6.21 | Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs | 10 000 000 |
| 1.11.6.22 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs | 950 000 |
| 1.11.6.23 | "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti" publik hüquqi şəxs | 7 054 100 |
| 1.11.6.24 | "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 11 000 000 |
| 1.11.6.25 | "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 6 000 000 |
| 1.11.6.26 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs | 20 000 000 |
| 1.11.6.27 | Yenidən təşkil edilmiş Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs | 5 238 800 |
| 1.11.6.28 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması ilə bağlı xərclər | 2 754 456 |
| 1.11.6.29 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 317 185 417 |
| 1.11.6.30 | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı | 13 600 408 |
| 1.11.6.31 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 4 032 450 |
| 1.11.6.32 | "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs (Laçın rayonunun işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) inzibati binaların və digər infrastrukturların tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi) | 250 000 000 |
| 1.11.6.33 | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 170 000 000 |
| 1.11.6.33.1 | İşğaldan azad edilmiş ərazilərdə elektrik təchizatı sistemləri üzrə görüləcək əsaslı və yenidənqurma işləri | 120 000 000 |
| 1.11.6.33.2 | Respublikanın ərazisində elektrik paylayıcı şəbəkələrinin yenidən qurulması | 50 000 000 |
| 1.11.6.34 | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (işğaldan azad edilmiş ərazilərdə kiçik su elektrik stansiyalarının tikintisi və "Cəbrayıl Enerji Qovşağı" layihəsinin birinci mərhələsinin başa çatdırılması) | 90 000 000 |
| 1.11.6.35 | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (dəmir yolu infrastruktur layihələri üzrə) | 71 000 000 |
| 1.11.6.36 | "Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" publik hüquqi şəxs | 50 000 000 |
| 1.11.6.37 | Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı | 212 500 000 |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 2 612 043 292 |
| 1.12.1 | Ehtiyat fondları | 1 940 581 670 |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000 |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 1 640 581 670 |
| 1.12.2 | Məqsədli büdcə fondları | 350 329 335 |
| 1.12.2.1 | "Avtomobil yolları" Məqsədli Büdcə Fondu | 330 480 000 |
| 1.12.2.2 | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 5 665 846 |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 12 867 463 |
| 1.12.2.4 | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 894 059 |
| 1.12.2.5 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 255 313 |
| 1.12.2.6 | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 166 654 |
| 1.12.3 | Valyuta konvertasiyası | 1 315 511 |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 1 315 511 |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 319 816 776 |
| 1.12.4.1 | Dövlət ehtiyatlarının yaradılması və təşkili | 40 000 000 |
| 1.12.4.2 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması | 19 963 502 |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 11 485 500 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 248 367 774 |
| 1.12.4.4.1 | İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 4 075 375 |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 14 133 496 |
| 1.12.4.4.2.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 4 861 042 |
| 1.12.4.4.2.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 9 210 910 |
| 1.12.4.4.2.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 61 544 |
| 1.12.4.4.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 3 206 433 |
| 1.12.4.4.4 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 71 900 711 |
| 1.12.4.4.5 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 24 277 009 |
| 1.12.4.4.6 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 8 997 997 |
| 1.12.4.4.7 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 7 615 182 |
| 1.12.4.4.8 | Mediasiya Şurası | 12 070 |
| 1.12.4.4.9 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 29 996 002 |
| 1.12.4.4.10 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 2 500 000 |
| 1.12.4.4.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 69 059 207 |
| 1.12.4.4.12 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 12 594 292 |

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun 2.1.14-cü, 2.1.20-ci və 2.2.12.2.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2.1.14-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.3. həmin Qanunun 2.1.20-ci maddəsində "məqsədli büdcə fondları" dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

2.4. həmin Qanunun 2.2.12.2.1-ci maddəsində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Moldova Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında su təsərrüfatı sahəsində Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 8-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında su təsərrüfatı sahəsində Əməkdaşlıq Sazişi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2024-cü il*

# Çinin BYD şirkəti ilə əməkdaşlığa dair sənədlər imzalanıb

**İyulun 2-də Baş nazirin müavini Şahin Mustafayevin iştirakı ilə keçirilən görüşdə ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsi məqsədilə Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə Çərçivə sazişi imzalanıb.**






Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sazişi iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, BYD şirkətinin kommersiya avtomobilləri üzrə icraçı direktoru Tien Çunlon və "Electrify Azerbaijan" MMC-nin direktoru Tariyel Rüstəmov imzalayıblar. Çərçivə sazişi elektrikmühərrikli avtobusların alınmasını, onlara xidmətin göstərilməsini, ölkəmizdə istehsalın qurulmasını və lokallaşdırılmasını nəzərdə tutur.

Tədbirdə çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Azərbaycan və Çin prezidentlərinin birgə səyləri ilə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bu gün bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığı qeyd olunub.

Bildirilib ki, Çin şirkətlərinin Azərbaycanda rahat və səmərəli fəaliyyət göstərməsi üçün bütün lazımi şərait təmin edilib və çoxsaylı Çin şirkətləri ölkəmizdə yaradılan əlverişli və şəffaf biznes mühitindən bəhrələnirlər.

BYD şirkəti ilə əməkdaşlığın uğurlu olacağına və bu gün imzalanacaq sənədlərin Azərbaycan-Çin qarşılıqlı faydalı əlaqələrinin daha da genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Bu il Azərbaycanın evsahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP 29) ərəfəsində sözügedən müqavilənin imzalanması ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizə üzrə qlobal səylərə sadiqliyini bir daha vurğulayır.

Saziş çərçivəsində BYD şirkəti ölkəmizdə əlavə dəyər zəncirinin inkişaf etdirilməsi məqsədilə yeni istehsal sahələrinə də investisiya qoymağı nəzərdə tutur. Belə ki, şirkətlə 2026-cı ildən aşağıtonnajlı yük elektrik avtomobillərinin, kommunal təsərrüfat üçün elektrikmühərrikli avtonəqliyyat vasitələrinin, elektrikmühərrikli minik avtomobilinin istehsalı və 2028-ci ildən isə elektrik enerjisinin saxlanması üçün batareyaların yığımı kimi sahələrdə əməkdaşlıq planlaşdırılır. Bu layihələrə şirkət tərəfindən ümumilikdə təqribən 60 milyon ABŞ dolları məbləğində əlavə investisiyanın qoyulması planlaşdırılır.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə elektrikmühərrikli avtobusların ölkəmizdə bu sahədə istehsalı həyata keçirəcək şirkətdən alınmasına qərar verilib. Azərbaycanda elektrikmühərrikli avtobus istehsalı müəssisəsi fəaliyyətə başladıqdan sonra isə tələbat daxili istehsal hesabına ödəniləcək. Hazırkı mərhələdə "BakuBus" MMC tərəfindən BYD şirkətindən 160 ədəd elektrikmühərrikli avtobus və 100 ədəd enerjidoldurma aparatı alınacaq. Avtobusların 2024-cü il oktyabrın 31-dək mərhələli şəkildə gətirilərək Bakı şəhərində marşrut xəttinə çıxarılması planlaşdırılır.

BYD ilə əməkdaşlıq çərçivəsində 2025-ci ildə yerli istehsalın qurulması və ehtiyat hissələrinin mərhələli şəkildə lokallaşdırılması planlaşdırılır. Lokallaşdırılmanın 2030-cu ilədək avtobusların ümumi maya dəyərinin 40 faizini təşkil etməsi nəzərdə tutulur. Layihə ilə bağlı müqavilənin bu ilin sentyabr ayında imzalanması planlaşdırılır.

Ölkəmizdə elektrik avtobuslarının istehsalı layihəsində "Azərbaycan İnvestisiya Şirkəti" ASC payçı kimi iştirak edəcək. Layihə üzrə BYD şirkətinin Azərbaycandan olan tərəfdaşı "SARDA Group" şirkətlərinə məxsus "Electrify Azerbaijan" MMC-dir.

Çinin BYD şirkəti tərəfindən Sumqayıt Kimya Sənaye Parkında qurulacaq zavodda elektrikmühərrikli avtobusların istehsalına ilkin olaraq 34 milyon ABŞ dolları həcmində investisiyanın qoyulması nəzərdə tutulub. Şirkət tərəfindən daxili tələbat və ixrac imkanları nəzərə alınmaqla illik istehsal həcminin 500 ədəd olması nəzərdə tutulur. Layihə çərçivəsində 800 yeni iş yerinin yaradılması planlaşdırılır.

1995-ci ildə yaranmış BYD şirkəti 2023-cü ildə 3 milyon yeni enerji avtomobilinin rekord satışını həyata keçirməklə dünya birincisi olub və şirkət avtomobil istehsalı, elektronika, elektrik batareyaları, bərpaolunan enerji və dəmir yolu nəqliyyatı sahələrində son yenilikləri tətbiq edən dünyamiqyaslı aparıcı texnologiya şirkətlərindən biri hesab olunur.

# Pakistanın səfiri Bilal Hayenin Azərbaycanda diplomatik fəaliyyəti başa çatıb

**İyulun 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Bilal Hayeni Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Pakistan arasında mövcud strateji tərəfdaşlıq gündəliyi, Pakistan İslam Respublikasına son rəsmi səfərdən irəli gələn məsələlər və gələcək planlar müzakirə olunub.

Ölkəmizdə diplomatik fəaliyyəti zamanı Azərbaycan-Pakistan münasibətlərinin inkişafı istiqamətində göstərdiyi hərtərəfli səylər və peşəkarlığa görə səfir Bilal Hayeyə təşəkkür edilib, ona bundan sonrakı fəaliyyətində uğurlar arzulanıb.

Nazir Ceyhun Bayramov səfir Bilal Hayenin Azərbaycanda diplomatik fəaliyyətinə başladığı dövrün keçmiş münaqişə və Ermənistanın işğalına son qoyulması ilə nəticələnən 44 günlük Vətən müharibəsinə təsadüf etdiyini vurğulayaraq, Pakistan tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə göstərilən davamlı mənəvi və siyasi dəstəyə görə təşəkkür edib.

Cari ildə Pakistana edilmiş rəsmi səfər çərçivəsində keçirilmiş görüşlərin, habelə strateji tərəfdaşlıq münasibətlərimiz ətrafında aparılan geniş fikir mübadilələrinin məmnunluq doğurduğu, əməkdaşlığımızın inkişafı üçün mövcud perspektivlərdən istifadənin zəruriliyi qeyd edilib.

Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) kimi bir sıra regional və beynəlxalq təşkilatlar daxil olmaqla, çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Pakistanın 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi münasibətilə təbriklər diqqətə çatdırılıb.

Səfir Bilal Haye ölkəmiz üçün olduqca taleyüklü bir dövrdə Pakistanın Azərbaycandakı səfiri kimi fəaliyyət göstərməsindən qürur duyduğunu, bundan sonra da iki ölkə arasında münasibətlərin daha da inkişafına ümidvar olduğunu diqqətə çatdırıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın müdafiə naziri Belarusa səfər edib

**İyulun 2-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarusa səfər edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik Z.Həsənovun Minsk şəhərində bu ölkənin alman-faşist işğalçılarından azad olunmasının 80-ci ildönümü və Müstəqillik Günü ilə əlaqədar keçiriləcək hərbi paradda, həmçinin Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclasında iştirakı planlaşdırılır.

Müdafiə nazirinin səfəri iyulun 3-dək davam edəcək.

# İtaliya Azərbaycandan "yaşıl enerji"nin idxalına maraq göstərir

**Energetika naziri Pərviz Şahbazov Milanda İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini ilə görüşüb.**

**Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə enerji sahəsində və Azərbaycanın COP29-a, İtaliyanın G7-yə sədrliyi çərçivəsində əməkdaşlığın geniş spektri müzakirə olunub.**

Azərbaycanla İtaliya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından və əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya ilə münasibətlərin hərtərəfli inkişafına önəm verdiyi vurğulanıb. İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olması, indiyə kimi Avropaya tədarük edilmiş 37,9 milyard kubmetr qazın 30 milyard kubmetrdən çoxunun bu ölkəyə nəqli və İtaliyanın qazla təchizatında Azərbaycanın ilk üçlükdə qərarlaşması müsbət məqamlar kimi qeyd olunub. Bu il İtaliyaya qaz tədarükünün 9,6 milyard kubmetr proqnozlaşdırıldığı, TAP-ın 2026-cı ildən ötürücülük gücünün 1,2 milyard kubmetr genişlənməsinin isə enerji təhlükəsizliyi və dekarbonizasiya məsələlərində əməkdaşlığımızı gücləndirəcəyi bildirilib.

Görüşdə "Ansaldo Energia" şirkəti ilə hazırda inşa olunan 1280 meqavatlıq elektrik stansiyasının və azad edilmiş ərazilərdə yarımstansiyaların avadanlıqlarla təchizatı üzrə əməkdaşlıqdan da bəhs olunub və bərpaolunan enerjinin tədarükü perspektivləri dəyərləndirilib. İtaliyanın "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" vasitəsilə Azərbaycandan "yaşıl enerji"nin idxal olunmasına marağı ifadə edilib.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**İyulun 2-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə MSK-nın iyunun 27-də keçirilən iclasının protokolu təsdiq edilib.**

Sonra bəzi seçki dairələri üzrə seçki məntəqələri ilə bağlı tədbirlərə dair məsələyə baxılıb.

Aparılan müzakirələrdən sonra yerli və digər şərait nəzərə alınmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi əsas götürülərək, ümumilikdə 24 seçki dairəsi üzrə seçki məntəqələri ilə bağlı Seçki Məcəlləsinin tələblərinə uyğun lazımi tədbirlərin görülməsi müvafiq dairə seçki komissiyalarına həvalə edilib.

Daha sonra MSK-nın normativ xarakterli aktlarına dair məsələyə baxılıb və bəzi normativ xarakterli aktlar son dövrlər qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.



Komissiyanın iclasında 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyası, Ağ Partiyası və Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə də baxılıb. Sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

Xarici qurum və media subyektləri nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

**Qərar № 16/57**

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 iyun tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 iyun tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

**Qərar № 16/58**

### Bəzi seçki dairələri üzrə seçki məntəqələri ilə bağlı tədbirlərə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 176 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilmişdir.

Dairə seçki komissiyaları tərəfindən səsvermənin keçirilməsi və səslərin hesablanması məqsədi ilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) müddəalarında əks olunan tələblər ödənilməklə, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi, yerli və digər şərait nəzərə alınmaqla qanunamüvafiq tədbirlər görülür.

Bununla əlaqədar, 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 11 saylı Binəqədi-Qaradağ, 22 saylı Nəsimi-Yasamal, 30 saylı Suraxanı birinci, 31 saylı Suraxanı ikinci, 32 saylı Suraxanı üçüncü, 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü, 36 saylı Xətai-Suraxanı, 67 saylı Sabirabad, 68 saylı Sabirabad-Şirvan, 70 saylı Neftçala, 71 saylı Cəlilabad şəhər, 86 saylı Ağcabədi, 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 103 saylı Şəmkir kənd, 113 saylı Qax-Şəki, 117 saylı Oğuz-Qəbələ-Şəki, 120 saylı Cəbrayıl-Qubadlı, 123 saylı Kəlbəcər və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairələri dairə seçki komissiyalarına yerli və digər şərait nəzərə alınmaqla seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi əsas götürülərək seçki məntəqələri ilə bağlı müvafiq tədbirlərin görülməsi həvalə edilməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 17.6.19-cu, 19.4-cü, 28.4-cü və 35-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 11 saylı Binəqədi-Qaradağ, 22 saylı Nəsimi-Yasamal, 30 saylı Suraxanı birinci, 31 saylı Suraxanı ikinci, 32 saylı Suraxanı üçüncü, 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü, 36 saylı Xətai-Suraxanı, 67 saylı Sabirabad, 68 saylı Sabirabad-Şirvan, 70 saylı Neftçala, 71 saylı Cəlilabad şəhər, 86 saylı Ağcabədi, 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 103 saylı Şəmkir kənd, 113 saylı Qax-Şəki, 117 saylı Oğuz-Qəbələ-Şəki, 120 saylı Cəbrayıl-Qubadlı, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairələri dairə seçki komissiyalarına yerli və digər şərait nəzərə alınmaqla seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi əsas götürülərək seçki məntəqələri ilə bağlı müvafiq tədbirlərin görülməsi həvalə edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

**Qərar № 16/60**

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyası səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Rəhim Əlihüseyn oğlu Babayev
Fizuli Məhəmməd oğlu Dehqani
Elnur Adigözəl oğlu Xələfov
Şamil Camil oğlu Qarəhmədov
Novruz Muxtar oğlu Əliyev
Ramil Bahadin oğlu Süleymanov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Elçin Mehdi oğlu Qurbanov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

**Qərar № 16/59**

### "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1178-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1178-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə əsasən **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2004-cü il 23 iyun tarixli 06/45 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Bəzi normativ aktlarda əlavə və dəyişiklik edilməsinə dair" 2010-cu il 22 aprel tarixli 9/46 saylı, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"na dəyişikliklər edilməsinə dair" 2015-ci il 15 may tarixli 9/83 saylı və 2019-cu il 7 dekabr tarixli 15/63 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"nın 2 və 2a saylı əlavələrində (hər iki halda) "verilmə tarixi" sözləri "və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin.

2. Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/38 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının 2010-cu il 22 aprel tarixli 9/46 saylı, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların öz təşəbbüsü ilə deputatlığa namizədliyinin irəli sürülməsi, seçicilərin təşəbbüs qruplarının yaradılması və onlar tərəfindən deputatlığa namizədin irəli sürülməsi qaydaları haqqında Təlimat"a dəyişiklik edilməsinə dair" 2015-ci il 15 may tarixli 9/81 saylı, 2019-cu il 15 mart tarixli 1/2 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların öz təşəbbüsü ilə deputatlığa namizədliyinin irəli sürülməsi, seçicilərin təşəbbüs qruplarının yaradılması və onlar tərəfindən deputatlığa namizədin irəli sürülməsi qaydaları haqqında Təlimat"ın 2.2-ci bəndində, 3.4.3-cü yarımbəndində, 1 (hər iki halda), 2, 5 və 6 (hər üç halda) saylı əlavələrində "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 3 saylı əlavəsində isə (hər iki halda) "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

3. Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/40 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının 2010-cu il 22 aprel tarixli 9/46 saylı, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"a dəyişiklik edilməsinə dair" 2015-ci il 15 may tarixli 9/82 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"ın 2.1.5-ci, 3.1.6-cı yarımbəndlərində, 1, 1a saylı əlavələrində "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 2, 3, 4, 5, 6, 6a, 6b, 6c, 6ç və 6d saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

4. Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/45 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Bəzi normativ aktlarda əlavə və dəyişiklik edilməsinə dair" 2010-cu il 22 aprel tarixli 9/46 saylı, "Bəzi normativ xarakterli aktların qəbul edilməsi, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsi barədə" 2010-cu il 23 iyul tarixli 15/58-9 saylı, "Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi haqqında" 2015-ci il 25 may tarixli 10/86 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"ın 1.6-cı, 1.11-ci, 1.12-ci bəndlərində "verilmə tarixini" sözlərindən sonra "və ya etibarlılıq müddətini" sözləri əlavə edisin.

5. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 iyul tarixli 6/23-1 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Bəzi normativ xarakterli aktların qəbul edilməsi, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsi barədə" 2010-cu il 23 iyul tarixli 15/58-5 saylı, "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair" 2013-cü il 2 aprel tarixli 2/8 saylı, "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat"a dəyişiklik edilməsinə dair" 2016-cı il 5 iyun tarixli 8/32 saylı, "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/2 saylı, "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat"da dəyişiklik edilməsi barədə" 2023-cü il 6 fevral tarixli 1/3 saylı qərarları) ilə təsdiq edilmiş "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat"ın 2, 2a, 3 və 3a saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

6. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-1 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) vəkil edilmiş şəxslərin statusu haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair" 2013-cü il 18 iyun tarixli 6/59 saylı, "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/2 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) vəkil edilmiş şəxslərin statusu haqqında Təlimat"ın 1.2-ci bəndində "seriya və nömrəsini" sözləri "seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini" sözləri ilə əvəz edilsin, 1.4-cü, 1.6-cı bəndlərində, 1, 2, 2a, 3, 3a və 8 saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

7. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-2 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair" 2013-cü il 18 iyun tarixli 6/58 saylı Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"ın 1.4-cü bəndində "seriya və nömrəsini" sözləri "seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini" sözləri ilə əvəz edilsin, 1, 1 "a", 2, 2 "a", 3, 3 "a", 3 "b" (hər iki halda), 3 "c", 3 "ç", 3 "d", 3 "e", 3 "ə" və 3 "f" saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

8. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-3 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/2-8 saylı Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) yerli müşahidənin aparılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 2.1-ci bəndlərində "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 1, 1 "a", 1 "b" və 1 "c" saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

9. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-4 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/2-7 saylı Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) beynəlxalq (xarici) müşahidəçilərin fəaliyyət qaydaları haqqında Təlimat"ın 3 saylı əlavəsində "seriyasi və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin.

10. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 7 avqust tarixli 9/39-1 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Seçki (referendum) komissiyalarının məşvərətçi səs hüquqlu üzvlərinin statusu haqqında Təlimat"da dəyişiklik edilməsi barədə" 2018-ci il 8 fevral tarixli 2/10 saylı, "Seçki (referendum) komissiyalarının məşvərətçi səs hüquqlu üzvlərinin statusu haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə" 2019-cu il 13 sentyabr tarixli 4/14 saylı qərarları) ilə təsdiq edilmiş "Seçki (referendum) komissiyalarının məşvərətçi səs hüquqlu üzvlərinin statusu haqqında Təlimat"ın 2.1.1-2.1.3-cü yarımbəndlərində "seriyası və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 1, 2 və 3 saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

11. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-1 saylı Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyaların bloklarının qeydə alınması qaydaları haqqında Təlimat"ın 1, 1 "a", 2 və 2 "a" saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

12. Mərkəzi Seçki Komissiyasının 2010-cu il 6 may tarixli 10/49-3 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Bəzi normativ xarakterli aktların qəbul edilməsi, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsi barədə" 2010-cu il 23 iyul tarixli 15/58-11 saylı, "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/2-11 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki fondlarına vəsaitlərin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında Təlimat"ın 3.12-ci bəndində "verilmə tarixini" sözlərindən sonra "və ya etibarlılıq müddətini" sözləri əlavə edilsin.

13. Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/29 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/3 saylı Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin seçicilərə verilməsi qaydası haqqında Təlimat"ın 2.5-ci və 3.3-cü bəndlərində "seriya və nömrəsini" sözləri "seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini" sözləri ilə əvəz edilsin, 2, 2 "a", 2 "b" və 2 "c" saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin, 3 saylı əlavəsində isə "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin.

14. Mərkəzi Seçki Komissiyasının 2015-ci il 25 may tarixli 10/87 saylı Qərarı (Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda dəyişiklik edilməsi barədə" 2017-ci il 7 aprel tarixli 2/5 saylı, "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/3 saylı, "Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2021-ci il 3 sentyabr tarixli 3/9 saylı, "Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 6 fevral tarixli 1/2 saylı qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"na 1 saylı əlavədə mətn üzrə "seriyası və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə, "seriyası və nömrəsi, verilmə tarixi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə, "seriyası, nömrəsi, verilmə tarixi" sözləri isə "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edisin.

15. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



Qərar № 16/61

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyanın səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyası səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Tural Feyruz oğlu Abbaslı
Əhəd Fərhad oğlu Məmmədli
Nərmin İkram qızı Abbaslı
Rəhim Rüfət oğlu Əhmədzadə
Cavanşir Cəlil oğlu Abbasov
Kamran Fərhad oğlu Məmmədli
Rüfət İbrahim oğlu Hacıbəyli
Cavid İbrahim oğlu Hacıbəyli
Səddam Saməddin oğlu Nəcəfov
Mətləb Məhərrəm oğlu Aslanov
Toğrul Feyruz oğlu Abbasov
Vüsal Balacan oğlu Quliyev
Azər Şofiq oğlu Hüseynov
Vüsal Şövkət oğlu Əliyev
Ariz Xudaverdi oğlu Zeynalov
Araz Mahir oğlu Teymurov
Cəlil İsa oğlu Abbasov
Hidayət Bəşir oğlu Həşimov
Gülmalı Paşa oğlu Baxşəliyev
Məhərrəm Məzahir oğlu Aslanov
İlhamə Paşa qızı Aslanova
Fuad Əkrəm oğlu Bədəlov
İbrahim Rəhim oğlu Hacıyev
Kamran Hakim oğlu Məmmədov
Vüsal Aydın oğlu Əliyev
Yusif Müzəffər oğlu Quliyev
Emil Bəylər oğlu Əliyev
Ceyhun Sulduz oğlu Rzayev
Seymur Dadaş oğlu Əliyev
İlkin Hacıəli oğlu Məmmədov
Cabir Əşrəf oğlu Məmmədov
Şahin Məhəmməd oğlu Həsənov
Nöhbala Hüseynbala oğlu Həsənzadə
Ağaəli Böyükağa oğlu Manafov
Aliyə Vəli qızı Əfəndiyeva
Dilavər Hüseyxan oğlu Cəfərov
Zaur Firudin oğlu Bəndəliyev
Racəddin Həşim oğlu Babayev
Ramil Bəbir oğlu Bəbirov
Taleh Hüseynbala oğlu Ədilov
Bahadır Balabəy oğlu Ruzmanov
Asif Əli oğlu Abdullayev
Pərviz Hacı oğlu Qubatov
Paşa Məzahir oğlu Salmanov
Elşad Musayib oğlu Əhmədxanov
Ələddin Fehruz oğlu Kərimov
Səxavət Ədalət oğlu Rəhimov
Cəlil Ələsgər oğlu Həbibov
Nemət Natiq oğlu Kərimov
İlham İsmayıl oğlu Nurməmmədov
Rasim Hüseyn oğlu Əhmədov
Vüqar İsrafil oğlu Məmmədov
Zamiq Kazım oğlu Zalov
Hakim Məmmədağa oğlu Məmmədov
İlham Malik oğlu Bağırov
Xatirə Əziz qızı İslamova
Piri Hikmət oğlu Kazımov
Nəsimi Hüseyn oğlu Hüseynov
Səbuhi Əlixan oğlu Babayev
Fərid Vəliyulla oğlu Dadaşov
Alagöz Əvəz qızı Süleymanova
Behbud Nüsrət oğlu Alıyev
Samir Bəhrəm oğlu Sultanov
Malvina Adilovna Amirova
Mahmud Nəsrəddin oğlu Məmmədli
Sərvan İlham oğlu Məmmədov
Nəcəf Qardaş oğlu Nəcəfov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Bəhram Yolçu oğlu Sadıqov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

Qərar № 16/62

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyası Siyasi Şurasının 2024-cü il 1 iyul tarixli qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Samir Şakir oğlu Əsədli
Felmar Əli oğlu Ələkbərov
Zeynalxan Allahverdi oğlu Fətullayev
Yusif Mətləb oğlu Xantemirov
Abdulla Aydın oğlu Abdullayev
Nəsimi Çərkəz oğlu Şərəfxanlı
Elxan İbrahim oğlu Mirzəyev
Yusif Ziyad oğlu Salmanlı
Aysel Xanlar qızı Səfərli
Fərman Kamran oğlu Hüseynov
Diana Rinatovna Fətullayeva
Zaur Mitya oğlu Məmmədov
Ədalət Saday oğlu Quliyev
Fikrət Rafiq oğlu Nəsrəddinzadə
Xəyal Ramiz oğlu Baloğlanov
Seyhun Şakir oğlu Əsədli
Tusi Mustafa oğlu Cəfərov
Vəli Yadulla oğlu Əsmətov
Tərlan İslam qızı Qasımova
Baba Məhəmmədəli oğlu Umudov
Vüsal Fəxrəddin oğlu Mehdiyev
İlham Nurəli oğlu Ağayev
Azər Məmmədcan oğlu Caniyev
Murad Elşad oğlu Hüseynov
Məqsəd Mərdan oğlu Orucov
Ülviyyə Əhmədağa qızı Məmmədova
Faiq Cümşüd oğlu Ağayev
Nazlı Dadaş qızı Ağayeva
Məharət Turab oğlu Ağayev
Məhəmməd Meretqeldi oğlu Türkmən
Narıngül Nadir qızı Babayeva
Bəylər Məmməd oğlu Tağıyev
Amal İsmayıl oğlu Nəzərli
Taleh Darvin oğlu Məmmədov
Ədalət Ağagül oğlu Məmmədov
Qafar Elxan oğlu Quliyev
Yunis Telman oğlu Rza
Nəsib Xosaxan oğlu Rustamov
Tapdıq Abış oğlu Əlibəyli
Alissa Vaçikovna Qukasova
Yuriy Pavloviç Voronin
Röyal Məhəbbət oğlu Hacıyev
Xasay Qamboy oğlu Vəliyev
Pünhan Dilsuz oğlu Bağırzadə
Famil Adil oğlu Zakirov
Samirə Şakir qızı Kərimova
Elvin Kazım oğlu Həziyev
Sabir İsmayıl oğlu Omarov
Həsən Nəsrəddin oğlu Rüstəmov
Səfiyar Hümbət oğlu Ağayev
Roman Zazayeviç Poladaşvili
Elməddin Mehman oğlu Şərifov
Əliabbas Əli oğlu Muğanlı
Azad Əmircan oğlu Əmirxanov
Fariz Vəli oğlu Cəfərov
Habil Müzəffər oğlu Əliyev
Sərvər Rəhman oğlu Hüseynov
Nicat Kamal oğlu Şükürov
Fərqanə Pənah qızı Qasımova
Adil Müşviq oğlu İsayev
Kamran İlkin oğlu Abbaslı
Rəşad Niyazi oğlu Adıgözəlov
Mirzəxan Paşa oğlu Heydərli
Səfərəli Teymur oğlu Teymurzadə
Rafiq Əvəz oğlu Məmmədov
Məmmədəmin Mehman oğlu Rəsulzadə
Dəniz Sadıq qızı Məmmədova
Ağadin Baba oğlu Mikayılov
İsmayıl Əmirxan oğlu İsmayılov
Bəhrəm İlham oğlu Xəlilov
Fizuli Abdulla oğlu Fərəcov
Sənan Bəkir oğlu İmanquliyev
Sərxan Sərvan oğlu Məmmədli
Məhəmməd Qabil oğlu Vəliyev
Fərrux Kəbir oğlu Abdulcanov
Vasif Xanlar oğlu Bəşirov
Ceyhun Elçin oğlu Ağayev
Günel Mehman qızı Əsgərova
Zaur Mütalib oğlu Fərzəliyev
Eldar Hüseynalı oğlu Cəfərov
Gülnar Faiq qızı Hüseynova
Mirheydər Mirəhəd oğlu Ağalarov
Vüqar Elşad oğlu Məhərrəmov
Gündüz Babalar oğlu Fərzəliyev
Elşən Lətif oğlu Aslanov
Ziyafət Əlibarat oğlu Əkbərov
Elmira Müslüm qızı Əlizadə
Vüqar Kamal oğlu Ataşov
Elgün Musa oğlu Abdullayev
Zöhrab Vahid oğlu İsmayılov
Elçin Mahmudağa oğlu Nuriyev
Mübariz Eyyub oğlu Camıyev
Etibar Yusub oğlu Yusubov
Zərxanım Ağamusa qızı Həsənli
Ağakərim Elşən oğlu Hüseynov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Səlahəddin Bərzani oğlu Əsgərov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

## *MSK sədri:* "Naxçıvanda seçki məntəqələrində bir sıra problemlər var"

"Naxçıvanda seçki məntəqələrində bir sıra problemlər var". AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın iyulun 2-də keçirilən iclasında söyləyib.

MSK sədri bildirib ki, işğaldan azad olunmuş ərazilərimizdəki və Naxçıvandakı seçki məntəqələrinin təchizatla təmin olunması, bütün tələblərə cavab verməsi diqqətdə saxlanılmalıdır.

## *Rövzət QASIMOV:* "Bəzi seçki məntəqələrinin hüdudlarında dəyişiklik edilməsinə əsaslar yaranıb"

**"Bəzi seçki məntəqələrinin hüdudlarında dəyişiklik edilməsinə əsaslar yaranıb".**

AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) iyulun 2-də keçirilən iclasında MSK sədrinin müavini Rövzət Qasımov deyib.

O bildirib ki, ümumilikdə 24 dairədə 50-yə yaxın seçki məntəqəsində müvafiq tədbirlərin görülməsinə ehtiyac var. Bu, ölkə üzrə baş tutan monitorinqlər nəticəsində bəlli olub.

MSK sədrinin müavininin sözlərinə görə, həyata keçiriləcək bütün tədbirlər seçicilərin rahatlığı üçün nəzərdə tutulub.

## MSK-da REAL-ın, Ağ Partiyanın və Vətəndaş Həmrəyliyi Partiyasının müraciətlərinə baxılıb

**"Milli Məclisə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərdə səlahiyyətli nümayəndələrin qeydə alınması ilə bağlı Respublikaçı Alternativ (REAL) Partiyasının, Ağ Partiyanın və Vətəndaş Həmrəyliyi Partiyasının müraciətlərinə baxılıb".**

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iyulun 2-də keçirilən iclasında MSK katibi Arifə Muxtarova məlumat verib.

Məsələ səsverməyə qoyularaq qəbul edilib.

Qərar № 16/63

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Mürvət Qarabağı oğlu Mirzəyev və Hüseyn Abbas oğlu Hüseynov 13 saylı Xəzər ikinci, Cümşüd Rəşid oğlu Musayev və Elnur Vaqif oğlu Bəhramov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Oktay Surxay oğlu Sadıqov və Səbuhi Nazim oğlu Rzayev 13 saylı Xəzər ikinci, Elimdar Qəzənfər oğlu Şəfiyev və Sadiq Qnyaz oğlu Zahidov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.07.2024*

# İlham Əliyev milli maraqları məharətlə təmin edir

## Azərbaycan etibarlı sülh uğrunda mübarizə aparsa da, daim hərbə hazırdır

*Ordunun güclü olmasının şərtləri çoxdur!*

"Ordum güclüdür" deməklə o, güclü sayılmır.

Ordunun gücü təkcə malik olduğu silah-sursatla da ölçülmür.

Ordunun gücü heç hərbi paradda da bilinmir.

**Ordunun gücü onu quran, yaradan sərkərdənin məharət və ustalığından, uzaqgörənliyindən və təşkilatçılıq bacarığından asılı olur!**

Ordunun gücü təkcə malik olduğu silah-sursat və texnikadan yox, həm də onu peşəkarlıqla işlədə bilməsindən asılı olur!

Ordunun gücünü həm də müharibə meydanında tətbiq etdiyi strategiya və taktika göstərir!

*Ordunun gücünü şərtləndirən ən mühüm amillərdən biri əsgər və zabitlər, onların mənəvi-psixoloji, iradi keyfiyyətlərinin yüksək səviyyədə olmasıdır!*

**Ordunu güclü edən onun baş Sərkərdəsi, vədəsində qəbul etdiyi operativ qərarlar, döyüş tapşırıqlarının düzgün verilməsi, hücum məqamlarının dəqiqliklə seçilməsi, orduda daim yüksək döyüş ruhunun qorunub saxlanılması, hərbi əməliyyatlarla diplomatiya və informasiya müharibəsində baş verənlərin üzvi şəkildə əlaqələndirilməsi, Ali Baş Komandanın şəxsi nümunəsi ilə hər bir döyüşçünü qələbəyə köklənməsindədir!**

❖ ❖ ❖

Ermənistan öz ordusunu "məğlubedilməz" adlandırırdı...

44 günlük müharibədə uğradıldıqları biabırçı məğlubiyyət, döyüş meydanlarında general, zabit və əsgərlərinin göstərdikləri qorxaqlıqlar və fərariliklər "məğlubedilməzliyin" iç üzünü bütün dünyaya nümayiş etdirdi.

*Ermənistan ordusunun kifayət qədər silah-sursatı, peşkəş edilən hərbi texnikası, əlverişli mövqeləri, onqat müdafiə xətləri, sistemləri və qurğuları vardı.*

*Bu gün onların bir qismini Bakıdakı Hərbi Qənimətlər Parkında hamıya nümayiş etdiririk.*

"Güclü ordu" adı, adətən, döyüş meydanlarında qazanılır!

Güclü ordu öz bacarıq və məharətini düşmənlə döyüşdə nümayiş etdirir!

Güclü ordunun döyüşçüləri lazım gələndə yalın əllə keçilməz cığırları keçməklə, yalçın qayalara dırmaşmaqla, ölümün gözünə dik baxaraq düşmənin canına qorxu, təlaş salmaqla, alınmaz qala - şəhərləri möcüzəvi şəkildə almaqla dünyaya nümunə kimi təqdim edə bilirlər!

**Güclü ordu sözdə, danışıqda yox, əməldə və döyüşdə özünü sübut edir.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qalib Azərbaycan Ordusu bu gün dünyanın etiraf etdiyi belə ordulardandır!**

❖ ❖ ❖

Bu gün Ermənistan qisas niyyətinə düşərək Fransadan, Hindistandan aldığı öldürücü silahları İran ərazisindən daşımaqla dağıdılmış ordusunu bərpa etməyə çalışır.

*Hayastandakı revanşist qüvvələr, keşiş Baqratın ətrafına toplaşanlar elə zənn edirlər ki, havadarlarına və müdafiəçilərinə arxalanmaqla yenidən güclənə, Azərbaycan ərazilərini təzədən işğal edə bilərlər.*

**Uzunqulaq bir dəfə palçığa batdığı yerə ikinci dəfə girmir.**

*Bir vaxtlar haylar:*

* "Böyük Ermənistan" xülyasına;

* "Dənizdən-dənizədək uzanan Ermənistan" quracaqlarına;

* "Tarixi Ermənistan"ı bərpa edəcəklərinə inandılar.

*Dünyanın bir çox ölkələrində fəaliyyət göstərən və rüşvət, korrupsiya yolu ilə həmin dövlətlərin siyasilərinə, başçılarına təsir göstərməyi bacaran lobbilərinə güvəndilər.*



*ABŞ, Fransa, Rusiya və Avropa İttifaqında ələ aldıqları senator, konqresmen, duma deputatı, siyasətçi və məmurlara arxalandılar.*

**Azərbaycana maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz, xəyanətkar insanların başçılıq etməsindən istifadə edərək 20 faiz ərazimizi ələ keçirdilər.**

Müdafiəçilərinə güvənərək BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, beynəlxalq hüququ saya salmadılar, ATƏT-in Minsk qrupunu ələ alaraq əl quzusuna, işğalı əbədiləşdirən alətə çevirdilər, ölkəmizin təbii sərvətlərini oğurlayıb apardılar, yaşayış məntəqələrini qarət edərək taladılar, dini, mədəni və tarixi abidələrimizi, hətta qəbiristanlıqlarımızı dağıdıb yerlə yeksan etdilər.

*Xaos və anarxiya burulğanında çabalayan Azərbaycanın zəifliyindən və gücsüzlüyündən istifadə etməklə özlərini "güclü", "məğlubedilməz" saydılar.*

Beyinləri o qədər dumanlandı ki, itirdiklərinin də fərqində olmadılar.

❖ ❖ ❖

**Ermənistanın ən böyük itkisi müstəqillikdən məhrum olması, marionet dövlətə çevrilməsidir.**

* Bu gün də sərhədlərini özgə dövlətin əsgərləri qoruyur...

* Bu gün də ərazisində başqa dövlətin hərbi bazası yerləşir...

* Bu gün də müstəqil siyasət yürüdə bilmir, kim çox pul və vəd versə, onun dediyi ilə oturub-durur.

*Ermənistan Azərbaycanın müəllifi olduğu transmilli layihələrdən kənarda qaldı.*

*Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi reallığa çevrilən və keçdikləri ərazilərdəki dövlətə böyük fayda gətirən beynəlxalq layihələrdən bəhrələnə bilmədi.*

* İndi isə Orta dəhlizdən qıraqda qalacaq.

* İndi isə Avropaya "yaşıl enerji" ixrac edəcək kabelə əli çatmayacaq.

*Bütün bu itkilərinə görə yoxsul, "diasporun ianəsi" ilə yaşayan forpost dövlətə çevrildi:*

* Əhalisi yoxsullaşdı, işsizlik baş alıb getdi.

* Ayağı yer tutan çörək dalınca xaricə qaçdı.

* Analar Yerablurdakı qəbirlərin sayı artmasın deyə oğlan övladlarını götürüb digər ölkələrə üz tutdular.

* Xaricdən göndərilən ianə pulları isə Qarabağ xuntasına məxsus prezidentlər, "tuşonka oğruları" adını qazanmış generallar mənimsəyərək sərvət sahiblərinə çevrildilər.

**Otuz il "artsax" respublikasının müstəqillik qazanaraq Ermənistana birləşdiriləcəyini xəyal etdilər.**

Terrorçulara, soyqırımı törədicilərinə, qazancları özgə evlərini və əmlaklarını talamaqdan çıxan oğrulara çevrildilər.

* Bütün bu xülyalara;

* Bütün bu əlçatmaz arzu və istəklərə;

* Bütün bu qondarma "artsax" respublikası oyunbazlıqlarına qüdrətli Azərbaycan Ordusu 44 gündə son qoydu!

* Otuzillik işğal;

* Otuzillik özbaşınalıq;

* Otuzillik qarət və oğurluq;

* Otuzillik özündən müştəbehlik 44 gündə puça çıxarıldı!

**"Dəmir yumruq" 44 gündə "böyük Ermənistan"ı, "tarixi Ermənistan"ı real Ermənistana çevirdi!**

*Üstəlik:*

* BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini də icra etdi!

* Beynəlxalq hüququ da bərpa etdi!

* Ədaləti də təmin etdi!

* Qudurmuşları da cəzalandırdı!

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Zəfər müharibəsində qazandığı möhtəşəm qələbə təkcə Ermənistanı yox, onun müdafiəçilərini və havadarlarını da şoka saldı!*

**Dünyaya nümunəvi müharibə, diplomatiya və informasiya savaşında necə qalib gəlmək dərsini verən Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanı kapitulyasiya aktını imzalamağa vadar etdi!**

*Özgə torpağına sahib çıxmaq arzusunda bulunaraq "Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyan forpost dövlətini məhvolmadan qurtarmaq üçün Azərbaycanın bütün şərtlərinə tabe oldu!*

❖ ❖ ❖

Ordusunu, əsrlər boyu xəyalında qurduğu "böyük Ermənistan" xülyasını, mənlik və şərəfini itirən Ermənistanın xunta rəhbərləri bu gün başlarını da itiriblər.

**Nə edəcəklərini, hansı qərarı qəbul edəcəklərini, kimin yanında dayanacaqlarını, kimin sözü ilə oturub-duracaqlarını hələ də kəsdirə bilmirlər.**

*Çünki Ermənistanın adı dövlət olsa da, əslində:*

* Vassaldır!

* Forpostdur!

* Marionetdir!

* Alətdir!

* Qapazaltıdır!

* Müstəqil qərar qəbul etmək iqtidarında deyil!

KTMT-dən çıxdığını söyləsə də, onu maliyyələşdirməkdən imtina etsə də, qərarını rəsmiləşdirməkdən qorxur!

ABŞ-dən, Fransadan, Avropa İttifaqından bol-bol vəd, bir qədər para, hücum silahları alsa da, üzünü Qərbə çevirsə də, necə deyərlər, "nə yardan doyur, nə də əldən qoyur".

Çünki gözünün qabağında Ukrayna nümunəsi var.

Ondan əvvəl isə Gürcüstanın nə qazandığının və Avropa İttifaqına nə təhər "qəbul" olunduğunun şahididir.

**Azərbaycanın isə dediyini edən Prezidenti, qalib Sərkərdəsi vardır!**

**İlham Əliyev üçtərəfli Bəyanatın bütün bəndlərinin icrasını tələb edir!**

**Həm də yubanmadan, uzatmadan!**

Delimitasiya və demarkasiya prosesini ləngitməməyi tələb edir!

*"Uzatsanız, bundan da pis günə qalarsınız...*

*Çünki bu halda sərhədləri özümüz müəyyən edəcəyik!" - açıqlamasını verir,*

**Ermənistanın konstitusiyasındakı Azərbaycana qarşı ərazi iddialarını referendum yolu ilə aradan qaldırmağı ləngitməyin!**

Əks halda sülh müqaviləsi imzalanmayacaqdır!

*Naxçıvana quru yolla gediş-gəlişin tezliklə açılmasını gözləyirik!*

*Yoxsa, bunu özümüz edərək üçtərəfli Bəyanatın məlum maddəsini qısa müddətdə həyata keçirəcəyik!*

**Azərbaycan bütün bu razılaşmaların dinc şəkildə icra olunacağını gözləyir.**

**Hələlik gözləyir.**

*Səbri isə hüdudsuz deyil!*

**Ən əsası, təkcə Ermənistan yox, bütün dünya bilir ki, Azərbaycan Prezidenti İlham Əliyev dediyini edəndir!**

❖ ❖ ❖

*Cari ilin may ayında Şuşaya qayıdan şuşalılarla Müzəffər Ali Baş Komandan İlham Əliyevin görüşü oldu.*

Şuşalılara yeni mənzillərinin açarlarını təqdim edən cənab İlham Əliyev keçmiş məcburi köçkünlərlə səmimi söhbətlər etdi.

**Dövlət başçısı İlham Əliyevin həmin görüş zamanı toxunduğu iki mühüm məqamı bir daha diqqətə çəkirik.**

Qoy xam xəyallara düşənlər bu xəbərdarlıqlardan zəruri nəticələr çıxarsınlar:

*"Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik. Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik".*

*"İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm".*

❖ ❖ ❖

Son zamanlar müxtəlif ranqlı erməni rəsmiləri bir qədər ürəkləniblər.

Müxtəlif zaman və məkanlarda açıqlamalar verirlər ki, guya Azərbaycanın tələbi ilə öz konstitusiyalarında dəyişiklik etməyəcək, ərazi iddialarını aradan qaldırmayacaqlar.

*Deyəsən, yaddaşları korlanıb, xatırladırıq:*

* Ərazilərimizi də geriyə qaytarmaq istəmirdilər!

"*Dəmir yumruq*"*la başlarını elə əzdik ki, yalvara-yalvara, qaça-qaça çıxıb getdilər!*

* Laçın dəhlizindən kefləri istəyən kimi istifadə edirdilər...

*Unikal əməliyyatla bu yolu üzlərinə elə bağladıq ki, indi bir erməni pişiyi də icazəsiz gələ bilməz!*

* Qanunsuz silahlı birləşmələrini, terrorçu dəstələrini geri çağırmaq niyyətində deyildilər...

*Elə bir antiterror əməliyyatı keçirdik ki, silah-sursatlarını ataraq arxalarına baxmadan qaçdılar!*

* Təzədən "prezident" seçkiləri keçirərək əvvəlki qaydada yaşamaq, Azərbaycan qanunlarına tabe olmaq istəmədilər.

*Qol-qanadlarını qırıb hər yerlə əlaqələrini kəsərək başqa yolları olmadığını başa saldıq!*

*Yır-yığış edərək dinməz-söyləməz birləşmək istədikləri Ermənistana yollandılar.*

**Nə qədər çəm-xəm etsələr də, başlarından böyük açıqlamalar versələr də, ayrı yolları yoxdur!**

**Konstitusiyalarını da dəyişəcəklər, bizim şərtlər əsasında tərtib olunmuş sülh müqaviləsini də imzalayacaqlar!**

❖ ❖ ❖

Adətən, güclülərlə hesablaşırlar...

Əks halda güclünün öz gücü sayəsində istəyinə nail olacağını bildiklərinə görə!

**Azərbaycan təkcə güclü deyil, həm də ədalətlidir!**

**Gücünü döyüş meydanında sübuta yetirib!**

*Ədaləti isə beynəlxalq hüquqa və reallığa söykənir!*

Düşünmək üçün daha vaxt qalmayıb!

Ağıllanmaq və güclü Azərbaycanla hesablaşmaq ən doğru və ən məqbul addım olar!

**Bəxtiyar SADIQOV**

## Azərbaycanın daxili işlər orqanları - 106

# Azərbaycan polisinin xidməti dövlətə və xalqa sədaqətin nümunəsidir

**Azərbaycan polisinin yaranmasının 106-cı ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib.**















Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Sonra Daxili İşlər Nazirliyinin Polis Akademiyasında nazir general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Polis Gününə və 2023-2024-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 106 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

Daxili işlər orqanlarının fəaliyyətində yeni bir mərhələ təşkil edən son 21 ilin inkişaf və təkmilləşmə baxımından xüsusilə əhəmiyyətli bir dövr olduğuna diqqət çəkən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar çərçivəsində, həmçinin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, zamanın çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması istiqamətində sistemli tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Nazir cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilən polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyini bildirib. O, xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğunu şəxsi heyətin diqqətinə çatdırıb. Qeyd olunub ki, 2003-2023-cü illərdə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, 25 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 35 mindən çox odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 77 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 25 tona yaxın narkotik vasitə çıxarılıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir, həmçinin cinayətkarlıqla mübarizədə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakını, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini də vurğulayıb.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığını deyən V.Eyvazov işğaldan azad edilmiş ərazilərdə Böyük qayıdışın gerçəkləşməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığını, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyini nəzərə çatdırıb.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinə təşəkkürünü bildirib.

Qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının rolunu xüsusi qeyd edən V.Eyvazov məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

General-polkovnik Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarıqlarını əsirgəməyəcək.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# İlham Əliyev sülh sazişinin başlıca şərtini bəyan etdi

## Tərkibində Azərbaycana qarşı ərazi iddiaları olan Ermənistan konstitusiyası dəyişdirilməlidir

**Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqların aparılması ümumilikdə sülh prosesinin irəlilədilməsi üçün mühüm şərait yaradıb. Sərhədlərin delimitasiya və demarkasiyasının həyata keçirilməsinə start verilməsi, o cümlədən Qazax rayonunun dörd kəndinin azad edilməsi münasibətlərin normallaşması üçün atılan təməl addımlar kimi xüsusi əhəmiyyət daşıyır. İki ölkə arasında sülh müqaviləsinin bağlanmasına gəldikdə isə, bunun üçün Ermənistan tələb olunan vacib şərti yerinə yetirməlidir.**

Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edən zaman Prezident İlham Əliyev məhz bu məsələni xüsusi diqqətə çatdırdı: "Sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq".

### Siyasi qətiyyət

Torpaqlarının 30 illik işğalı dövründə də Azərbaycan hər zaman sülh tərəfdarı olub, münaqişənin danışıqlar vasitəsilə yoluna qoyulmasına çalışıb. Lakin məsələnin danışıqlar yolu ilə nizamlanması üçün missiyalandırılan ATƏT-in keçmiş Minsk qrupu 28 illik fəaliyyəti dövründə yalnız onun olduğu kimi, yəni Ermənistanın xeyrinə dondurulması üçün əlindən gələni edib.

Ancaq işğal siyasəti ilə heç vaxt barışmayacağını həm Ermənistana, həm də onu dəstəkləyən xarici qüvvələrə qətiyyətlə bildirən Azərbaycan 44 günlük müharibə, eləcə də antiterror tədbirləri ilə torpaqlarını azadlığına qovuşdurdu, suverenliyini tam təmin etdi. Bakının sarsıdıcı siyasi, diplomatik həmlələri bölgədə maraqları olan mənfur xarici qüvvələri də ağır məğlubiyyətə uğratdı.

Ötən dövrdə bəzi Qərb ölkə və təsisatları Ermənistan vasitəsilə Cənubi Qafqazda yenidən münaqişə ocağı yaratmaq üçün xeyli çirkin fəaliyyət sərgilədilər. Lakin onların bütün platformalarda başlatdıqları anti-Azərbaycan kampaniyası ölkəmizin səyləri ilə iflasa uğradıldı.

### Sülh prosesində sürətli irəliləyiş

Postmünaqişə dövründə mühüm sülh təşəbbüsləri ilə çıxış edən Bakı İrəvana beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan təkmil sülh modeli təklif edib. Azərbaycanın sözügedən istiqamətdə əməli fəaliyyət həyata keçirməsinin nəticəsidir ki, artıq iki ölkə problemlərini masa arxasında danışıqlar vasitəsilə həll edir, özü də vasitəçilərsiz. Faktdır ki, Vətən müharibəsindən sonra Fransa bir tərəfdən sülh prosesində vasitəçi kimi iştirak etmək üçün can atır, digər yandan da riyakar fəaliyyəti ilə barışa yox, bölgədə yenidən münaqişə yaranmasına çalışır. Ancaq Fransanın mənfur planları Bakı tərəfindən fiaskoya uğradıldı. Ermənistan nəhayət anladı ki, xarici havadarlarının sözünə uyub özünü uçuruma aparmaqdansa, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan sülh şərtlərini qəbul etməsi daha faydalıdır.

"Hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik" deyən Prezident İlham Əliyev, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəlilədiyimizi hesab etdiyini söylədi. Dövlətimizin başçısı dedi: "Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin".

### Qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalıdır

Qarabağda həyata keçirilən antiterror tədbirlərindən sonra orada məskunlaşan erməni sakinlər könüllü şəkildə ölkəmizi tərk etdilər. Lakin bölgədə maraqları olan bəzi xarici qüvvələr bu məsələdən öz xeyirlərinə istifadə etmək üçün guya onlara ölkəmiz tərəfindən qayıdış hüququnun verilməməsi ilə bağlı hay-küy yaradırlar. Birincisi, həmin ermənilər Azərbaycan qanunları ilə yaşamaq istəmədikləri üçün öz xoşları ilə gediblər və qayıtmaq barədə də düşünmürlər. Əgər belə düşüncələri olsa belə, yalnız bir halda bu gerçəkləşə bilər: tarixin müxtəlif dönəmlərində, eləcə də 1980-ci illərin sonlarında Ermənistan ərazisindən qovulan azərbaycanlıların da qayıdış hüquqları bərpa olunsun.

Bununla əlaqədar Kanadanın yeni təyin olunmuş səfirinin şərhinə cavabında dövlətimizn başçısı bildirdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizlənməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd etdi.

Bir sözlə, Cənubi Qafqazda ədalətli və davamlı sülhün əldə olunması üçün Azərbaycan böyük səy göstərir. İki ölkə arasında intensiv danışıqların aparılması, delimitasiya və demarkasiya prosesinə başlanılması da bu istiqamətdə həyata keçirilən effektiv işlərin müsbət nəticələrindəndir. Ermənistanın ərazilərimizə olan iddiasından birdəfəlik əl çəkərək konstitusiyasında dəyişiklik edəcəyi təqdirdə isə sülh müqaviləsi imzalana bilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*






# Naxçıvandan Şuşaya

## Prezident İlham Əliyev türk dünyasının birliyini davamlı möhkəmləndirir

**Ötən əsrin sonlarında baş verən geosiyasi dəyişikliklər nəticəsində dünyanın siyasi xəritəsində yeni müstəqil türk dövlətlərinin yaranması və qloballaşan dünyanın çağırışları ilə üzləşməsi türkdilli xalqların daha çox birlikdə hərəkət etməsi zərurətinin yaranmasına gətirib çıxarmışdır. O dövrdən başlayaraq, türkdilli dövlətlərin başçılarının zirvə görüşləri ortaq mənəvi irsin qorunması və təbliği baxımından mühüm rol oynamışdır.**

Türkdilli dövlətlərin başçılarının zirvə görüşlərinin keçirilməsi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılması, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) təsis edilməsi nəticəsində türkdilli ölkələr arasında olan əməkdaşlıq yeni təşkilati mərhələyə daxil olmuşdur. Türk dövlətləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin güclənməsinə xidmət edən sistemli fəaliyyətin əsasını qoymaqla əbədi qardaşlıq bağlarının möhkəmlənməsinə zəmin yaratdılar.

Adətən, deyirlər ki, tarix şəxsiyyəti yaradır, amma böyük şəxsiyyətlər də öz əməlləri ilə tarix yazır, onu istiqamətləndirirlər. Ulu Öndər Heydər Əliyev dövrün və zamanın gərdişini yönəldən dövlət rəhbəri kimi Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən türk dünyasında aparıcı mövqelərə çıxmasında, ümumtürk həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Dahi lider Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı nəticə etibarilə təkcə Azərbaycan dövlətçiliyi üçün deyil, eyni zamanda yeni müstəqillik əldə etmiş digər türk dövlətlərinin inkişafı üçün də önəmli hadisə idi. Çünki həmin dövrdə əlbir olan xarici qüvvələrin səyləri ilə gənc Azərbaycan dövlətinin məhv edilməsi postsovet məkanındakı digər türk respublikaları üçün də acınacaqlı nəticələr doğura bilərdi. Azərbaycan dövlətinin iflası həmin ölkələrin də böyük güclərin geosiyasi əsarətinə keçməsinə, yeni imperiya boyunduruğuna düşməsinə yol aça bilərdi. Dahi şəxsiyyət Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaqla digər türk dövlətlərinin bərabərliyi, gələcək tərəfdaşlığı üçün tarixi xidmət göstərmiş oldu.

Məhz buna görə Ulu Öndər Azərbaycanın siyasi rəhbərliyinə qayıtdığı gün, 1993-cü ilin 15 iyununda Ali Sovetdə proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyinin vacibliyini qeyd etmişdi: *"Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan, Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda keçmiş Sovetlər İttifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır".*

Bundan sonra Azərbaycanın dünyaya açılmasında, o cümlədən türk dövlətləri ilə münasibətlərdə real addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev sonralar bu inteqrasiyanın mahiyyətini türk ideoloqu İsmayıl bəy Qaspralının məşhur kəlamı ilə belə ifadə etmişdi: *"XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olmuşuq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır".*

Ümumiyyətlə, türkdilli ölkələr arasında əlaqələr hər keçən gün güclənməkdə və inkişaf etməkdədir. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Bu əlaqələrin əhatə dairəsi çoxşaxəlidir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı olan TÜRKSOY türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir. Məlumdur ki, türkdilli dövlətlər coğrafi-strateji baxımından dünyanın əhəmiyyətli bölgəsində yerləşirlər. TÜRKSOY-un ardından Türk Şurası və TÜRKPA-nın yaradılması regionda türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti üçün önəmli təkan verir, regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır, ticarət və investisiya imkanlarının möhkəmlənməsinə köməklik edir.

Türk Şurası türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvanda keçirilən Zirvə görüşündə cənab Prezident İlham Əliyevin evsahibliyində imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Bu da Azərbaycanın türkdilli dövlətlər arasında nə qədər inamlı və əvəzsiz körpü rolu oynadığının bariz nümunələrindən biri kimi göstərilə bilər. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş olan Türk Şurası özünü bu ümumiliklərlə məhdudlaşdırmır. Daha doğrusu, təşkilat üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr kimi mövcud ikitərəfli əməkdaşlıq sahələrini genişləndirərək regiona fayda verməsi üçün çoxtərəfli əməkdaşlığa çevrilmək niyyəti daşıyır. Təşkilat, eyni zamanda tarixi İpək yolunun bərpası, regional Türk Diasporu mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir. Naxçıvanda keçirilən IX Zirvə toplantısında Prezident İlham Əliyev demişdi: *"...Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqı zamanı da Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı...".*

Böyük Atatürk vaxtilə deyirdi ki, "Naxçıvan Türkün qapısıdır". Bu gün öz inkişafı ilə Naxçıvan türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilib. Naxçıvan türk dünyasına böyük dühalar bəxş edən bir diyardır. Türk dünyasının böyük oğlu, türkdilli xalqların birliyinin təmin olunmasında mühüm xidmətləri olan Ümummilli Lider Heydər Əliyev, memar Əcəmi Naxçıvani, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, tanınmış rəssam Bəhruz Kəngərli kimi dahilərin vətənidir Naxçıvan. Bütün bunların nəticəsidir ki, Türk Şurası Gənc Liderlərinin ilk forumu da Naxçıvanda keçirilmişdir. Naxçıvanda keçirilən bu forum eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və inkişafı, eləcə də idman sahəsində əməkdaşlığın qurulması üçün geniş imkanlar açmışdır. Elm, təhsil və mədəni inkişaf tarixən türk xalqlarını birləşdirib. "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Gəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsi olub. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər.

Cənab İlham Əliyev türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsinə, bütün türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən liderdir. Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan təşkilatın inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib. Azərbaycan 2019-2021-ci illərdə Türk Şurasına uğurla sədrlik edib, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin gücləndirilməsi, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərib, Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əməkdaşlıq münasibətlərinin davam etdirilməsinə, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıq çərçivəsinin qurulmasına misilsiz töhfələr verib. Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf edib, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü gerçəkləşdirib. Ölkəmizin tarixi Zəfəri türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynayıb. Hazırda regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasında bağlılığa öz töhfəsini verməkdədir.

Bəli, Naxçıvanın bütün türk dünyasının qapısı kimi səciyyələndirilməsi isə heç də təsadüfi deyildir. Türkdilli ölkələri bir araya gətirən Türk Dövlətləri Təşkilatının (TDT) yaşı elə də çox deyil. Biz fəxr edirik ki, türkdilli dövlətlərin institusional strukturunun formalaşması təşəbbüsü Prezident İlham Əliyevdən gəlib və bu tarixi prosesin təməli qədim Azərbaycan torpağı olan Naxçıvanda qoyulub. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb. 2021-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olub və əhəmiyyətli beynəlxalq təşkilata çevrilib. Bu, təkcə ad dəyişikliyi deyil, həm də yeni baxışın və yeni inkişaf vektorunun göstəricisidir.

Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial Lider kimi şöhrət qazanan İlham Əliyev 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə deyirdi: *"Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti on illiklər ərzində dayandırılmışdır".* Bu gün isə Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan tarixi hadisədir. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasını birləşdirən körpü rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr, o cümlədən Ermənistan üçün əlavə imkanlar yaradacaq. Göründüyü kimi, türk dünyasını birləşdirən körpü rolunu oynayacaq Zəngəzur dəhlizi, həmçinin regional inkişaf üçün də yeni üfüqlər açacaq, bölgədə davamlı sülhə, əməkdaşlığa və təhlükəsizliyə böyük töhfələr verəcək. Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevirəcək, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək Zəngəzur dəhlizi həm də Azərbaycanın Türkiyə və türk dünyası ilə güclü bağının yaranmasında əhəmiyyətli rolunu daha da gücləndirəcək. Naxçıvanla birbaşa nəqliyyat əlaqəsinin yaradılması ümumilikdə işğaldan azad olunmuş ərazilərimizin dirçəlişi üçün unikal imkanlar açacaq.

2023-cü il sentyabrın 25-də modern inkişafının yeni dövrünü yaşayan Naxçıvanın ictimai-siyasi həyatında daha bir mühüm hadisə yaşandı. Türk dünyasının qapısı adlandırılan qədim yurdumuz iki qardaş liderin - Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşünə və tarixi sənədlərin imzalanmasına layiqli evsahibliyi etdi. Həmin gün dünyanın diqqəti Naxçıvana yönəlmişdi. Çünki Azərbaycan və Türkiyə prezidentlərinin son zamanlardakı həssas dönəmlərdə qarşılıqlı səfərləri, dəstək bəyanatları artıq ənənə halını almışdı. Ölkəmizin suverenliyinin təmin edildiyi bir məqamda cənab Ərdoğanın həm BMT kürsüsündə Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizəsini müdafiə etməsi, ardınca Naxçıvana səfəri çox mühüm siyasi hadisə olmaqla bərabər, strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyini bir daha təsdiqlədi.

Bir sözlə, Türkiyə Prezidentinin Naxçıvan səfəri zamanı iki dost, qardaş, müttəfiq ölkənin sarsılmaz birliyi, həmrəyliyi bir daha bütün dünyaya nümayiş etdirildi.

Bu gün türk dünyasının birliyi daha da güclənir və Naxçıvandan başlayan bu hərəkat getdikcə genişlənir. Dünyada baş verən geosiyasi dəyişikliklər fonunda türk dövlətlərinin birliyinin gücləndirilməsinin əhəmiyyəti özünü daha aydın şəkildə büruzə verir ki, bu da regional və beynəlxalq sabitlik, təhlükəsizlik və əməkdaşlıq kontekstində müstəsna əhəmiyyət daşıyır.

5-6 iyulda türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçiriləcək Türk Dövlətləri Təşkilatının Zirvə görüşü də əminik ki, qardaş xalqların birliyinin möhkəmlənməsinə əsaslı töhfələr verəcək. Naxçıvandan Şuşaya doğru gedilən şərəfli türk həmrəyliyi yolu Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin bu prosesdə oynadığı əlahiddə rolu növbəti dəfə təsdiq edəcək.

**Arzu ABDULLAYEV,**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Reallığın yaratdığı zərurət

## Qarabağ və Şərqi Zəngəzurda ilk dəfə keçiriləcək parlament seçkiləri qanunvericilik tariximizdə yeni səhifə açacaq

**Son 4 ildə əldə edilmiş möhtəşəm tarixi qələbələr, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində uğurla və ardıcıl şəkildə həyata keçirilmiş çoxşaxəli islahatlar nəticəsində ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub.**

Böyük Zəfərimizdən sonra regionda yaranmış yeni reallıqlar və ictimai-siyasi vəziyyət bir sıra mühüm proseslərin həyata keçirilməsinə imkan verib. İlk dəfə olaraq ölkənin bütün ərazisində növbədənkənar prezident seçkiləri keçirilib. Otuz ildən sonra işğal altında olan ərazilərdə seçicilər səsvermədə iştirak edərək vətəndaşlıq borclarını yerinə yetiriblər.

İndi isə Azərbaycan növbəti mühüm ictimai-siyasi mərhələnin astanasındadır. Prezident İlham Əliyevin sərəncamına əsasən sentyabrın 1-də ölkəmizdə Milli Məclisə növbədənkənar seçkilər keçiriləcək. Bu seçkiləri əvvəlkilərdən fərqləndirən əsas cəhət isə onun ölkəmizin bütün ərazilərində keçirilməsidir.

Əgər 2020-ci ildə Vətən müharibəsi tariximizin səhifələrinə Şanlı Zəfər sözünü həkk etdisə, 2023-cü ilin 20 sentyabrı Böyük Zəfərin davamı olaraq lokal antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və süverenliyimizin tam bərpası reallaşdısa, 2024-cü ilin 7 fevralı şanlı tariximizə bütöv Azərbaycanda ilk Prezident seçkiləri kimi yazıldısa, 1 sentyabr günü də tariximizə bütün ərazilərimizdə keçirilən ilk parlament seçkiləri günü kimi yazılacaq.

Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir Konstitusiyanın 98-ci maddəsinin II hissəsinə əsasən isə növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti 5 ildən az ola bilər. Seçkilərin keçirilməsi müddətinin önə çəkilməsi bir sıra mühüm məqamlarla əlaqədardır.

Prezident İlham Əliyevin sərəncamı ilə altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin 2024-cü il sentyabrın 1-nə təyin edilməsi aparılan hərtərəfli islahatların davamıdır. İlk dəfə olaraq parlament seçkilərinin işğaldan azad edilmiş ərazilərdə keçirilməsi ölkəmizin ərazi bütövlüyünün qanunvericilik müstəvisində də təsdiqinin bariz nümunəsi olmaqla yanaşı, xalqımızın sürətlə inkişaf edən demokratik Azərbaycan naminə səsvermə prosesinə güclü dəstək verdiyini dünyaya nümayiş etdirəcək.

Parlament seçkilərinin növbədənkənar keçirilməsini şərtləndirən mühüm amillərdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsinin noyabr ayına təsadüf etməsidir. İstər Azərbaycanın, istərsə də Cənubi Qafqaz regionunun ictimai-siyasi həyatında strateji əhəmiyyətə malik belə mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycana göstərilən etimadın və böyük hörmətin göstəricisidir. Digər tərəfdən, ölkəmiz üzərinə böyük məsuliyyət düşür. Belə ki, 80 minə yaxın əcnəbi qonağın Azərbaycana təşrif buyuracağı və qlobal əhəmiyyətli qərarların qəbul olunacağı COP29-un yüksək səviyyədə keçirilməsi zərurətini ortaya qoyur.

Artıq Mərkəzi Seçki Komissiyası seçkilərə hazırlıq işlərinə start verib. MSK "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" 2023-cü il 5 dekabr tarixli Qanunla əlaqədar olaraq bəzi seçki dairələrinin hüdudlarında dəyişiklik edib. Seçki Məcəlləsinin tələbləri əsas götürülərək, habelə yerli və digər şərait nəzərə alınmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi diqqətdə saxlanılaraq 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd və 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarında və adlarında qismən dəyişikliklər olunmasına qərar verilib. Qərara əsasən, yuxarıda qeyd edilən seçki dairələri müvafiq olaraq 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 118 saylı Ağdam-Xocalı, 119 saylı Ağdam və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi adlandırılıb.

İndi soydaşlarımız məcburi köçkün statusunda deyil, öz doğma torpaqlarında seçki hüquqlarından istifadə edəcəklər. Hər bir vətəndaşın həyatında bu xüsusi bir hadisədir. Növbədənkənar parlament seçkiləri bundan sonrakı mərhələdə əsas diqqətimizi mühüm məsələlərin həllinə yönəltməyə imkan verəcək. Çünki parlament seçkiləri özlüyündə olduqca mühüm siyasi hadisədir.

Suverenliyini tam təmin etmiş Azərbaycanda ilk dəfə keçirilən Prezident seçkilərində olduğu kimi, qarşıdakı Milli Məclisə seçkilərdə də xalq öz düzgün seçimi ilə layiqli namizədlərinə səs verməklə, ölkəmizin müasir tarixində yeni səhifə açmış olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın əsas şərti

## Ermənistan ərazi iddialarından əl çəkməsə, sülh olmayacaq

**İyulun 1-də Prezident İlham Əliyev Kanadanın ölkəmizə yeni təyin edilmiş səfirinin etimadnaməsini qəbul edən zaman Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı aparılan danışıqlara toxunub. Dövlət başçısı sülh müqaviləsi ilə bağlı Azərbaycanın əsas şərtlərindən birini bir daha səsləndirib ki, bu da Ermənistan konstitusiyasında dəyişikliklə bağlıdır. Yəni Ermənistan konstitusiyasında dəyişiklik olmayacaqsa, Azərbaycana olan ərazi iddialarından əl çəkilməyəcəksə, onda iki ölkə arasında sülh də olmayacaq.**



Günün müzakirə olunan mövzusu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, Ermənistan konstitusiyasında dəyişiklik edilmədən Azərbaycanla sülh sazişi imzalayarsa, bu, sadəcə olaraq onun zaman udmasına xidmət edəcək. Çünki Ermənistan konstitusiyasının 116-cı maddəsinin üçüncü bəndində göstərilir ki, Hayastanın imzaladığı beynəlxalq sənəd konstitusiya ilə ziddiyyət təşkil edə bilməz. Ziddiyyət təşkil edərsə, o sənəd ratifikasiya olunmayacaq. Belə olan halda Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalayarsa, bu, onun üzərinə heç bir öhdəlik qoymayacaq. "Yəni bu sənədin hüquqi əsası olmayacaq. Ermənistan ilk fürsətdə yenə Azərbaycana qarşı ərazi iddialarını irəli sürəcək. Bu baxımdan, Prezident İlham Əliyev çox haqlı olaraq Ermənistanda konstitusiya dəyişikliyini sülhün əsas şərtlərindən biri kimi irəli sürür".

Deputatın sözlərinə görə, ölkə rəhbəri vurğulayıb ki, vaxtilə Azərbaycanla Ermənistan arasında keçmiş münaqişənin tənzimlənməsinə cəhdlər göstərilsə də, heç bir nəticəsi olmayıb. ATƏT-in keçmiş Minsk qrupu münaqişəni tənzimləmək istəmirdi, BMT Təhlükəsizlik Şurasının qətnamələri mövcud olsa da, Ermənistan onların icrasını həyata keçirmirdi. Həmin qətnamələrdə Ermənistan qoşunlarının qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxması tələb olunurdu. Lakin Ermənistan hər zaman olduğu kimi beynəlxalq hüquq normalarına biganə yanaşırdı: "Ölkəmizin rəhbəri bildirdi ki, Azərbaycan torpaqları Ermənistanın işğalı altında olduğu dövrdə ərazi bütövlüyünün dəstəklənməsi çox vacib idi. Lakin bu istiqamətdə hər hansı mövqe olmayıb".

E.Mirbəşiroğlu deyib ki, dövlətimizin başçısı növbəti dəfə beynəlxalq ictimaiyyətə yönəlik bir mövqeyimizi də aydın şəkildə bəyan edib. Prezident bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh məsələsi bizim digər ölkələrlə münasibətlərimizə hər hansı formada təsir göstərə bilməz. Bu, Azərbaycanla Ermənistan arasında olan məsələdir. Azərbaycan Ermənistanla münasibətlərin normallaşmasının tərəfdarıdır. Buna görə də kənar müdaxilələr olmamalıdır.

Deputat vurğulayıb ki, ötən ilin dekabrından başlayaraq Azərbaycanla Ermənistan arasında birbaşa danışıqlar mövcuddur və sərhədlərin delimitasiya və demarkasiyası təcrübəsi formalaşıb: "Bu, nümayiş etdirir ki, iki tərəf öz arasındakı məsələni müzakirə edib, həlli yollarını tapa bilir. Azərbaycan ərazi bütövlüyünü öz gücü hesabına təmin edib. İndiki mərhələdə Azərbaycanın ərazi bütövlüyünün kimsə tərəfindən tanınmaması elə bir mahiyyət kəsb etmir. Ölkə Prezidenti Azərbaycanın güclü mövqeyini göstərib. Bizim mövqeyimiz, tələblərimiz haqlıdır. Əgər Ermənistan həqiqətən regionda sülh istəyirsə, hər şeydən öncə Azərbaycanın haqlı tələblərinə əməl etməlidir".

Müsahibimiz bildirib ki, Azərbaycanın əsas tələbi Ermənistanın ölkəmizə qarşı ərazi iddialarının olmadığını sübut etməsidir. Bu da həmin ölkənin konstitusiyasına dəyişiklik yolu ilə mümkün ola bilər.

Prezident həmçinin sülh müqaviləsinin mətni üzərində işlərin getdiyini xatırladaraq bildirib ki, Ermənistan tərəfi Azərbaycanın çağırışlarına uyğun addım atarsa, bir neçə ay ərzində sülh müqaviləsi üzərində işlər tamamlana bilər. Əsas prinsiplər üzərində razılıq əldə edildikdən sonra sülh müqaviləsinin mətninin yekunlaşdırılması istiqamətində addımlar atmaq olar: "Ölkə rəhbəri bu mənada ATƏT-in keçmiş Minsk qrupunun Madrid prinsiplərinə də işarə etdi. Yəni öncə prinsiplər razılaşdırılsın, ondan sonra isə sənədin imzalanması baş tuta bilər. Prezident İlham Əliyev təcrübəyə istinadən bunun mümkünlüyünü vurğuladı. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan regionda dayanıqlı sülhün təmin olunması istiqamətində qətiyyətli mövqeyə və iradəyə sahibdir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Artıq vasitəçiyə ehtiyac yoxdur



**Kanadanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyevin qeyd etdiyi məsələlərdən biri də torpaqlarımızın işğalı dövründə münaqişənin həlli istiqamətində göstərilən səylərlə bağlı oldu. Dövlət başçısının haqlı olaraq bildirdiyi kimi BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu, olmaq istəmədi: "Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi".**

Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, bütün dünya Qarabağı Azərbaycanın ərazisi kimi tanısa da, işğal dövründə ATƏT-in Minsk qrupu problemin həllinə nail olmaq, daha dəqiq desək, Azərbaycan torpaqlarının işğaldan azad edilməsini istəmədi. 1992-ci ildə yaradılan bu ATƏT mexanizmi öz fəaliyyətində guya beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanırdı. Əslində isə beynəlxalq hüququn bütün norma və prinsipləri Azərbaycanın haqlı mövqeyini ifadə edirdi. Bundan başqa, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edilmişdi. Göründüyü kimi, Minsk qrupunun ona həvalə olunmuş vəzifəni ədalətli şəkildə yerinə yetirə bilməsi üçün kifayət qədər böyük əsaslar var və güclü beynəlxalq hüquqi baza var idi.

Lakin 30 ilə yaxın bir müddət ərzində Minsk qrupu problemin ədalətli həllinə nail olmaq üçün bir addım belə atmadı. Azərbaycan torpaqlarının faktiki olaraq işğal edilməsi, yüz minlərlə azərbaycanlının doğma torpağından məcburi köçkün salınması, onların yaşamaq və mülkiyyət hüquqlarının Ermənistan tərəfindən kobud şəkildə pozulması həmsədrləri qətiyyən narahat etmədi.

İkinci Qarabağ müharibəsində Azərbaycanın öz torpaqlarını güc yolu ilə azad etməsinin fonunda baş verən proseslər isə təsdiq etdi ki, əslində, Minsk qrupunun məqsədi münaqişəni yoluna qoymaq olmayıb. Fransanın Vətən müharibəsinin başladığı günlərdən Ermənistanın müdafiəsinə qalxması və Azərbaycanla açıq şəkildə düşmənçilik aparması bunu təsdiq edir. Kanadanın səfiri ilə görüşdə 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə danışıqlar aparıldığını xatırladan Prezident İlham Əliyev bütün bunların heç bir nəticə vermədiyini, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfinin bunu istəmədiyini diqqətə çatdırdı.

Xatırladaq ki, hələ 2020-ci ilin dekabrında Minsk qrupunun Fransadan və ABŞ-dən olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev vasitəçilərin 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı. "ATƏT 1992-ci ildə Minsk qrupunu təsis etdi və o, bu münaqişənin həll yolunu tapmalı idi. Yəni işğala son qoyulmalı idi. Əksinə, Minsk qrupu bu münaqişənin əbədi olmasını istəyənlərin əlində alətə çevrildi. Bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur. Biz Minsk qrupuna artıq əlvida demişik", - deyə Prezident İlham Əliyev bildirmişdi.

Minsk qrupunun həmsədrləri düşünüblər ki, zaman keçdikcə, illər ötdükcə Azərbaycan reallıqla barışmalı olacaq. Azərbaycan isə nəinki bununla barışdı, torpaqlarını güc yolu ilə azad etməklə elə Minsk qrupunun özünü tarixin arxivinə göndərdi. Hazırda isə Azərbaycanla Ermənistan arasında sülh danışıqları və sərhədlərin delimitasiyası ilə bağlı proseslər ikitərəfli səviyyədə həyata keçirilir. Artıq hansısa tərəfin prosesə müdaxiləsi yoxdur, hansısa vasitəçiyə ehtiyac qalmayıb və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# ABŞ mətbuatı Azərbaycanda dekolonizasiya mövzusunda keçirilmiş konfransdan yazıb

**Ümumdünya Kilsələr Şurasının (ÜİK) Mərkəzi Komitəsi Azərbaycanla razılaşır ki, Fransız Polineziyası Fransa müstəmləkəçiliyindən azad edilməlidir.**

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş məqaləsində yazıb.

"Azərbaycan Bakıda dekolonizasiya mövzusunda konfrans keçirir" başlıqlı məqalədə qeyd olunub ki, məqsədi "Fransız azadlıq və antimüstəmləkəçi hərəkatları"nı dəstəkləmək olan "Bakı Təşəbbüs Qrupu" (BTQ) kimi tanınan təşkilatın təşəbbüsü ilə bu yaxınlarda Azərbaycan Milli Məclisində "Fransız Polineziyasının dekolonizasiya hüququ: çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib. Konfrans çərçivəsində Polineziya nümayəndə heyəti ilə görüşən qrupun icraçı direktoru Abbas Abbasov "müstəmləkəçilikdən qurtulmaq istəyən xalqların ədalətli mübarizəsini bundan sonra da dəstəkləməyə" söz verib.

Məqalədə Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri Viktor Maamaatuayahutapunun konfransdakı çıxışından da iqtibas gətirilib: "Bu gün biz Fransanın müstəmləkəçilik siyasətinə görə təcrid olunmuşuq. Biz siyasi cəhətdən gənc millətik və Azərbaycanın dəstəyinə ehtiyacımız var. Fransa bizi təcrid etməyə çalışır, çünki ərazimizdə nüvə sınaqlarını davam etdirmək istəyir". Beynəlxalq hüquqi mexanizmlərin qeyri-mükəmməlliyinin Fransa müstəmləkələrinin azadlığa çıxmasına mane olduğu diqqətə çatdırılan konfransda qeyd olunub ki, keçən ilin iyulunda Bakıda BTQ-nin təsis edilməsi 150 ildən artıqdır Karib dənizi, Cənubi Amerika, Hind və Sakit okeanlar daxil olmaqla regionlara təsir edən istismarla mübarizə üçün yeni səylər dalğasının başlanğıcı kimi qiymətləndirilməlidir.

Sözügedən hərəkatın uğurlu olacağına və nəhayət, məzlum xalqlara layiq olduqları azadlığı bəxş edəcəyinə inam ifadə olunan konfransda vurğulanıb ki, Fransa hökuməti Fransız Polineziyasında keçirdiyi nüvə sınaqlarına görə yalnız 2010-cu ildə kompensasiya komissiyası yaradıb. Amma sözügedən sınaqların dağıdıcı fəsadlarına, o cümlədən radiasiya ilə bağlı xəstəliklərin artmasına baxmayaraq, Fransa Prezidenti Emmanuel Makron hələ də rəsmi üzr istəməyib.

Yazıda Ümumdünya Kilsələr Şurasının Mərkəzi Komitənin qəbul etdiyi ictimai bəyanatda Fransa hakimiyyətini "öz öhdəliklərini yerinə yetirməyə və Maohi xalqının iqtisadi, sosial və mədəni inkişafı üçün bütün lazımi vasitələri təmin etməyə" və "Fransadan zərərçəkmiş bütün şəxslərə təzminat ödəməyə" çağırış edildiyi diqqətə çatdırılıb.

# "Freedom House"un hesabatının qərəzli olduğunu bütün dünya görür

**ABŞ Dövlət Departamentinin marionet təsisatları olan, guya "demokratiya, siyasi azadlıqlar, insan hüquqları və onların müdafiəsi" ilə məşğul olduqlarını deyən "Freedom House"nin saxta reytinqlərində Azərbaycanla bağlı qərəzli mövqenin əks olunması yenilik deyil. Uzun müddətdən bəridir ki, bu təşkilat bəyanat, hesabat adlandırdıqları cızma-qaralarında Azərbaycana qarşı qeyri-obyektiv münasibət nümayiş etdirir. Ölkəmiz haqqında yazılanlar və deyilənlər isə həqiqətdən, reallıqdan çox-çox uzaq olan böhtan və yalanlardır.**




Üzdə özünü "müstəqil QHT" adlandırıb, bu ad altında fəaliyyət göstərən, əslində isə asılı və muzdlu hökumət aləti olan "Freedom House" və ona oxşar təşkilatların yalan və hay-küylə gündəmi zəbt etməsi, təbiidir ki, onların gizli və məkrli niyyətlərindən xəbər verir. Bu gizli niyyətin arxasında isə həm də gizli məqsədlər dayanır. Prezident İlham Əliyev hələ ötən il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində "Freedom House" və digər oxşar təsisatları ifşa etmiş və bildirmişdi ki, "Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty International" və "Freedom House" müstəqildirlər. Baxın onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar".

Qərb üçün demokratik ölkə ona qulaq asan, itaət edən, necə deyərlər, "sözəbaxan" ölkədir. Biz artıq şahidlik edirik ki, dünyanın "bizdən və bizdən olmayan" bloklarına bölünməsi, ayrı-seçkilik və sıfır tolerant, o cümlədən nifrət dili təşviq edilməsi gizli deyil, açıq formada həyata keçirilir. Sülh və sabitliyə ehtiyac duyulduğu bir vaxtda qarşılıqlı anlaşma meydandan qovulur. "Freedom House"un ideoloqlarının artıq çəkinmədən, özü də qəsdən ayırıcı xətləri dərinləşdirməsi, hazırda beynəlxalq aləmdə cərəyan edən geosiyasi qarşıdurmaya ideoloji rəng verməyə çalışması dövlətləri bu və ya digər düşərgəyə aid etməsi, qruplara bölməsi heç bir məntiqə və standarta sığmır.

Azərbaycana qarşı həmişə qərəzli mövqe sərgiləyən "Freedom House"un 2023-cü ilin sentyabr ayında da Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror tədbirlərindən sonra iddia etmişdi ki, guya orada ermənilərin hüququ pozulub. Özünü hüquq müdafiəçisi adlandıran bu təşkilat 1 milyondan çox azərbaycanlı məcburi köçkün və qaçqının 30 ilə yaxın müddətdə pozulan hüquqlarını "yaddan çıxardı". Bir dəfə də olsun bu barədə bəyanat vermədi, Ermənistana haqlı iradını bildirmədi.

İllər ötüb keçsə də, "Freedom House"da heç bir yenilik, dəyişiklik yoxdur. Bu təşkilat yenə əvvəlki ampluasındadır. Elə dayandığı yerdə yatıb qalıb. Yenə də ölkəmizə qarşı qara yaxmağa davam edir. Artıq uzun müddətdir özünü radikal erməni diasporunun muzdlu carçısına çevirmiş "Freedom House" 2024-cü il iyulun 1-də heç bir reallıqla üst-üstə düşməyən növbəti anti-Azərbaycan hesabatını dərc edib. Hazırlanmış hesabatda heç bir məntiqə əsaslanmadan Azərbaycanın Qarabağ bölgəsindən ermənilərin könüllü olaraq Ermənistana köçüb getməsini hüquq pozuntusu kimi qələmə verilir. Göründüyü kimi, "Freedom House" təşkilatı insan hüquqları kimi ali dəyəri müdafiə etmək əvəzinə, yenə də radikal millətçi-terrorçu təəssübkeşə çevrilir. Yenə də erməniləri, erməniçiliyi müdafiə edir. "Freedom House"da kök salmış vitse-prezident Anni Boyacıyan, o cümlədən idarəçilikdə üstün rolu olan Şaron Nazaryan kimi çoxsaylı radikal erməni funksionerlərinin bu təşkilatda varlıqları onların kim olduğunu və hansı məqsədə xidmət etdiklərini aydın şəkildə göstərir. Ümumiyyətlə, əksəriyyəti terror birləşmələrinin üzvü olan erməni lobbisinin kollektiv Qərbin anti-Azərbaycan mövqe tutan ölkələrində böyük infrastruktura malik olması, siyasətçiləri ələ alması, parlamentə, mətbuata və hökumət orqanlarına yol tapması bir çox hallarda azərbaycanofobiya mühitinin yaradılması üçün əsas rol oynayır. İkinci Qarabağ müharibəsində məhz erməni diasporunun yerlə yeksan edilməsi onlara sarsıdıcı zərbə vurdu. Ona görə də hazırda bu təşkilatın erməni klanının təşəbbüsləri əvvəlki kimi kəsərli deyil. Azərbaycanın daim artan beynəlxalq nüfuzu ermənilərə xidmət edən təşkilatları gündən-günə zəiflədir.

Ötən əsrin doxsanıncı illərində Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan torpaqlarından bir milyona yaxın azərbaycanlının zorla qovulmasına göz yuman "Freedom House" təşkilatının sözügedən böhtan xarakterli hesabatı yayması haqlı olaraq Qərbi Azərbaycan İcmasında hiddət doğurub. İcma bununla bağlı bəyanat verib. Bəyanatda deyilir: "Sözügedən hesabatın sifarişçiləri regionda sülhə mane olmaq və ədavəti qızışdırmaq məqsədi güdürlər. Bir daha geniş ictimaiyyətə xatırladırıq ki, vitse-prezident Anni Boyacıyan daxil olmaqla çoxsaylı radikal erməni funksionerlərinin kök saldığı "Freedom House"un insan hüquqlarının qorunması ilə heç bir əlaqəsi yoxdur və bu təşkilat tamamilə irqçi düşüncəli dairələrin təsirinə düşmüşdür".

"Freedom House" və başqa təşkilatların Azərbaycan haqqında dünyada yanlış təsəvvür yaratmaq arzuları yerlə yeksan olacaq. Onlar heç vaxt məqsədlərinə çatmayacaqlar. Çünki hesabatda yazılanlar həqiqətdən çox uzaq olan yalanlardır. Azərbaycana qarşı həmişə ədalətsiz mövqe nümayiş etdirən, öz korporativ maraqlarının təminatı üçün yalanlar danışan, əfsanələr uyduran qərəzli hesabatlar hazırlayan bu təşkilatların məqsədi hər kəsə aydındır. Əsas niyyətləri Azərbaycanın dünyada daim artan uğurlarının, nüfuzunun üstünə kölgə salmaqdır. "Freedom House"nin cəhdləri əbəsdir, məğlubiyyətə məhkumdur. Çünki dünyanın gözü açıqdır. Hamı "Freedom House"un Azərbaycanın əleyhinə olan hesabatının reallıqdan kənar və qərəzli olduğunu çox yaxşı görür.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*




# Ölkəmiz "Yaşıl dünya naminə həmrəylik təşəbbüsləri"nin mərkəzinə çevrilib

**Son onilliklərdə beynəlxalq əhəmiyyətli tədbirlərin ev sahibinə çevrilən Azərbaycan daha bir mühüm qlobal konfrans ərəfəsindədir. Bu ilin 11 - 22 noyabr tarixlərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, qısa adı ilə COP29 Azərbaycanda keçiriləcək. Belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsi qərarının verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının nümunəsidir. Eyni zamanda Azərbaycanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə davamlı töhfələrinin ən yüksək səviyyədə qiymətləndirilməsidir.**



## Beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü

Ölkəmiz beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə işində fəal iştirak edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, birbaşa nəzarəti ilə bu istiqamətdə ardıcıl layihələr həyata keçirilir. İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezidentin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması da dövlətimizin bu məsələlərə verdiyi önəmin daha bir göstəricisidir.

"Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" olmaq Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri kimi müəyyənləşib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində davamlı işlər aparılır.

Azərbaycan baza ili kimi qəbul olunmuş 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması əsas vəzifə kimi qarşıya qoyulub. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir.

"Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir. Bu məqsədlə ölkəmizin zəngin külək və günəş potensialından istifadə olunması istiqamətində genişmiqyaslı layihələrə başlanılıb. Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə kimi 1,5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləməyi planlaşdırır. Ölkəmizin quruda və dənizdə mövcud olan zəngin külək enerjisi resursları dayanıqlı enerji istehsalı üçün mühüm imkanlar yaradır. Respublikamız külək enerjisi üzrə quruda 3 QVt həcmində qiymətləndirilən iqtisadi potensiala, həmçinin dənizdə 157 QVt təşkil edən texniki potensiala malikdir. Bu potensialın reallaşdırılması istiqamətində mühüm addımlar kimi "ACWA Power" və "Masdar" kimi beynəlxalq investorlarla həyata keçirilən layihələr bunun bariz nümunəsidir.

## Təmiz texnologiyalar

Azərbaycan dövləti qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsini, təmiz enerji mənbələrindən istifadənin, tullantıların təkrar emalının və çirklənmiş ərazilərin bərpasının təşviq olunmasını vacib sayır. Bu istiqamətlərin hər biri üzrə genişmiqyaslı tədbirlər həyata keçirir. Bütün bunlar istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə də mühüm töhfə verir.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə məqsədilə də təxirəsalınmaz işlər aparılır. Xüsusilə "Yaşıl dünya naminə həmrəylik ili"ndə bu istiqamətdə tədbirlər daha da genişləndirilib. Bütün ölkəboyu yaşıllıqların salınması, ağacəkmə aksiyalarının keçirilməsi xoş bir ənənəyə çevrilib.

Azərbaycan dövləti bu sahədə görülən işlərlə ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunmasını, resurslardan səmərəli istifadənin təmin olunması məsələlərini diqqətdə saxlayır. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həllinə və bu sahədə davamlı inkişaf proseslərinə nail olmağa yüksək prioritet verir. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılması da düzgün qiymətləndirilir. Bu məqsədlə ölkədə ümumi ərazidə yaşıllıqların payı artırılır və proses getdikcə genişləndirilir. Həmçinin iqtisadi artımla ekoloji mühit arasında tarazlığın qorunması məqsədilə yararsız torpaq sahələri dövriyyəyə cəlb olunur və bununla mövcud resurslar bərpa edilir. Ölkənin keyfiyyətli suya tələbatının su resurslarından səmərəli istifadə etməklə ödənilməsi yönündə də mühüm addımlar atılır.

Azərbaycan dövləti bərpaolunan enerji mənbələri ilə bağlı layihələri ilə yanaşı, enerjidən səmərəli istifadə məsələlərini də diqqətdən kənarda qoymur. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payının artırılması hədəflənir. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsirləri nəzərə alınaraq Bakıda və başqa mərkəzi şəhərlərimizdə bu vasitələrdən geniş istifadə üçün lazımi infrastruktur qurulur. Əhali arasında maarifləndirmə işləri aparılır.

Qlobal dünyanın tərkib hissəsi olaraq bu gün Azərbaycan özü də iqlim dəyişmələrinin fəsadları ilə üz-üzədir. Çaylarımızda və Xəzər dənizində suyun azalması prosesi gedir, ölkədə səhralaşma problemləri var. Uzun illər ərzində ermənilər işğal altında saxladıqları ərazilərimizdə ekoloji genosid siyasəti həyata keçiriblər. Hazırda Azərbaycan dövləti Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq tədbirləri çərçivəsində ekoloji genosidin ağır təsirlərini də aradan qaldırır. Ermənilərin ağır zərərlər vurduqları ekosistem bərpa olunur. COP29-a sədrlik bu istiqamətdə işlərə də müsbət təsir göstərəcəkdir.

Azərbaycan bu mühüm beynəlxalq konfransa evsahibliyi mandatı çərçivəsində bütün iştirakçı tərəflərlə danışıqlar prosesinə şəffaflıq, inklüzivlik və neytrallıq prizmasından yanaşır. Ölkəmizin dünyanın kəsişmə nöqtəsində, Şimalla Cənubun, Şərqlə Qərbin qovuşuğunda, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin arasında yerləşməsi də bu cəhətdən geniş imkanlar yaradır. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün öhdəsinə düşən məsələləri yerinə yetirir, nümunə göstərir, eyni zamanda Qlobal Dəyərləndirməni tam əks etdirən və 1,5°C-yə uyğun olan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) üzərində işləyir.

## Azərbaycanın evsahibliyi edəcəyi ən böyük tədbir

Qeydlərimizin əvvəlində də xatırlatdığımız kimi, ölkəmiz son onilliklərdə müxtəlif genimiqyaslı beynəlxalq tədbirlərə evsahibliyi edib. İştirakçı sayı və miqyas baxımından isə COP29 Azərbaycanın evsahibliyi edəcəyi ən böyük tədbir olacaq. Tədbirin keçiriləcəyi məkan kimi Bakı Olimpiya Stadionu seçilib. Bu qərar BMT ilə məsləhətləşmələr nəticəsində və əvvəlki COP tədbirlərinin təcrübəsi nəzərə alınaraq qəbul edilib. COP29 zamanı təşkil olunacaq göy və yaşıl zonaların stadion ərazisində kompakt şəkildə yer alması, ətraf mühitə mümkün mənfi təsiri minimuma endirmək məqsədilə ərazinin planı BMT-nin təşkilat komandası ilə koordinasiyalı şəkildə hazırlanır. Konfransın bütün plenar sessiyalarının vahid məkanda təşkili üçün stadionun ətrafında əlavə qurğular quraşdırılacaq. Artıq COP29-un loqosu da Azərbaycan və dünya ictimaiyyətinə yaxşı tanışdır. Loqoda buta motivləri beş fərqli elementi - flora və fauna, hava və külək, su, enerji və kainatı özündə birləşdirir. COP29-un loqosu bəşəriyyət və ətraf mühit arasında davamlı əlaqənin, ekoloji cəhətdən həssas davranış və nəticəyönümlü fəaliyyətin əhəmiyyətini əks etdirir.

Belə bir qlobal əhəmiyyətli konfransa hazırlığın ən vacib istiqamətlərindən biri də təbii ki, əhalinin bu sahədə ekoloji maarifləndirilməsidir. İctimaiyyətin bu mötəbər iqlim konfransından gözləntilərinin, eləcə də iqlim dəyişmələrinin təsirləri kimi müxtəlif önəmli mövzularda məlumatların əlçatanlığının təmin edilməsi məqsədilə COP29 Məlumat Mərkəzi yaradılıb. Mərkəz vətəndaşlar arasında dayanıqlı vərdişlərin və nümunəvi davranışların inkişafına xidmət göstərəcək. Belə ki, mərkəz konfransın məqsəd və hədəfləri, iqlim dəyişmələri ilə qlobal mübarizədə kollektiv fəaliyyətin əhəmiyyəti haqqında məlumatların əlçatanlığını və ekoloji biliklərin artırılmasını təmin edəcək. İnnovativ yanaşması ilə seçilən mərkəzin məqsədi gündəlik dayanıqlı davranışları və həyat tərzini fəal şəkildə təşviq etməkdir.

Ziyarətçilərin iqlim dəyişmələri və COP29 konfransı haqqında interaktiv və maraqlı təcrübə keçmələri üçün Məlumat Mərkəzində müxtəlif tematik zonalar yaradılıb. Belə ki, COP zonalarında qonaqlar bu mühüm konfransın xronoloji və coğrafi tarixçəsi ilə tanış ola, virtual səyahət zonasında VR eynəkləri vasitəsilə nadir immersiv iqlim səyahətinə çıxaraq dünyanın istənilən nöqtəsində landşaft və iqlim şəraitini izləyə bilərlər.

## Gənclərin iştirakı üçün bütün imkanlar yaradılır

Ekoloji maarifləndirmə və iqlim dəyişmələri istiqamətində gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə COP29 Akademiyası da fəaliyyətə başlayıb. Akademiyanın yaradılması təşəbbüsü iqlim və dayanıqlılıq mövzularında peşəkar səriştələr, liderlik, dərin bilik nümayiş etdirən və fərqlənən universitet məzunlarını tanımaq və dəstəkləməyi, ölkənin parlaq gəncləri vasitəsilə dayanıqlılığın əhəmiyyəti barədə cəmiyyətin məlumatlandırılmasını hədəfləyir.

Bu proqram iştirakçılara mentorluq, davamlı peşəkar inkişaf və özünü inkişaf üçün imkanları təklif etməklə iştirakçıların dayanıqlılıq sahəsində biliklərə yiyələnməsi, bu biliklərin həmyaşıdları, ailələri və ictimaiyyət ilə paylaşmaları üçün bir platforma rolunu oynayacaq.

İstənilən ixtisas sahəsi üzrə məzunların müraciətlərini qəbul edəcək akademiya qeydiyyatdan keçən gənclər üçün ünsiyyət, layihələrin idarəedilməsi, peşəkar davranış kodeksi və sairə kimi yumşaq bacarıqlara yiyələnmək üçün müvafiq mütəxəssislərin iştirakı ilə seminarlara qatılma imkanı yaradacaq. COP29 Akademiyasının iştirakçıları Əməliyyat Şirkəti tərəfindən işlə təmin edilərək COP29 tədbirinin təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb ediləcəklər. Bütün bunlar gənclərimizin peşəkar bacarıqlara yiyələnməsinə, təcrübə toplamasına, məşğulluğuna da mühüm töhfə olacaq.

Xüsusilə vurğulanmalı məqamlardan biri isə budur ki, Azərbaycanın dünyanın bu günü və gələcəyi naminə fəal şəkildə iştirak etdiyi təşəbbüslər təkcə bir tədbirlə bitmir, davamlı xarakter daşıyır. Bu, COP29 tədbirindən sonra da belə olacaqdır. Qeyd edək ki, Azərbaycan 2026-cı ildə BMT-nin 5 İyun Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edəcək. 5 iyun 2026-cı il tarixində Bakıda keçiriləcək Ümumdünya Ətraf Mühit Günü də ətraf mühitlə bağlı əməkdaşlığı və məqsədyönlü fəaliyyəti ehtiva edən ən böyük qlobal platformadır. 1972-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən təsis edilmiş Ümumdünya Ətraf Mühit Günü bəşəriyyət və planetimiz üçün ekoloji tərəqqinin sürətləndirilməsi naminə reallaşdırılan bütün fəaliyyət və tədbirlərdə istər əyani, istərsə də onlayn formatda iştirak edən milyonlarla insan tərəfindən qeyd olunur. 2026-cı ildə Azərbaycanın evsahibliyi edəcəyi Ümumdünya Ətraf Mühit Günü çərçivəsində əsas diqqət iqlim dəyişmələri ilə bağlı məsələlərə yönəldiləcək. Bütün bunlar Azərbaycanın "yaşıl dünya" naminə həmrəylik təşəbbüslərinin mərkəzində irəliləyən ölkələrdən olduğunu, yaşadığımız planetə mühüm töhfələr verdiyini göstərir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# COP29 Azərbaycanın dəyərinin dünyada qiymətləndirilməsinə xidmət edəcək

**Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun Elmi şurasının "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində iclası keçirilib. İclas "Geologiya və Geofizika İnstitutu COP29 beynəlxalq konfransı ərəfəsində" mövzusuna həsr edilib. Bu barədə AZƏRTAC-a institutdan məlumat verilib. İclasda Geologiya və Geofizika İnstitutunun direktoru akademik Akif Əlizadə rəhbərlik etdiyi müəssisənin geoloq və geofiziklərinin "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı elmi potensialını xatırladaraq bildirib ki, alimlərin sözügedən beynəlxalq tədbirdə fəal olmaları zəruridir. Direktor, həmçinin COP-un tarixçəsi, mahiyyəti, bu tədbirə indiyə kimi evsahibliyi etmiş ölkələr barədə danışıb.**



İclasda Bakı Dövlət Universitetinin professoru Aydın İbrahimovun "COP29 və onun geosiyasi əhəmiyyəti" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi vurğulayıb ki, Qarabağ bölgəsinin 30 illik işğaldan sonra azad edilməsi Azərbaycan üçün tamamilə yeni geosiyasi reallıq yaradıb. COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın dəyərinin dünya miqyasında qiymətləndirilməsinə xidmət edəcək.

Akademik Fəxrəddin Qədirovun məruzəsi isə "Peyk texnologiyalarından istifadə etməklə iqlim dəyişikliyinin nəticələrinin tədqiqi: dayanıqlı inkişaf məqsədilə "yaşıl enerji"yə keçid imkanları (Azərbaycan və Xəzər rayonu)" mövzusuna həsr edilib.

Daha sonra "İqlim dəyişmələri ssenarisi nəzərə alınmaqla Azərbaycanda geoloji proseslər" və "Xəzər suitilərinin populyasiyasına iqlim dəyişməsinin birbaşa təsiri" mövzularında məruzələr dinlənilib.

# Media nümayəndələrinin COP29-da iştirakı üçün akkreditasiya portalı istifadəyə verilib




**Media nümayəndələrinin COP29-da iştirakı üçün akkreditasiya portalı istifadəyə verilib.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, media nümayəndələrinin COP29-a akkreditasiyası üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) akkreditasiya platforması fəaliyyətə başlayıb. İyulun 2-dən etibarən portal vasitəsilə dünyanın hər yerindən media nümayəndələri UNFCCC Katibliyinə akkreditasiya üçün müraciət edə bilərlər.

COP29 konfransı media nümayəndələri üçün planetimizin gələcəyini formalaşdıracaq konstruktiv müzakirələr, əlamətdar qərarlar və dayanıqlı gələcək üçün atılan birgə addımları dünya ictimaiyyətinə çatdırmağa unikal imkan yaradacaq. Belə ki, COP29-a akkreditə olunmuş jurnalistlər konfrans çərçivəsində media üçün nəzərdə tutulan peşəkar məzmun və infrastruktura birbaşa çıxış əldə etməklə yüksəksəviyyəli danışıqları əyani və ya onlayn şəkildə izləmək, konfransın rəsmi proqramına birbaşa çıxış əldə etmək, iqlim dəyişmələri sahəsində elmi və texnoloji yeniliklərdən xəbərdar olmaq kimi bir sıra imkanlardan, eləcə də konfransın rəqəmsal qlobal auditoriya platformasından yararlana biləcəklər. COP29-un Yaşıl və Mavi zonalarına giriş imkanı yaradan akkreditasiya ilə jurnalistlər, həmçinin tədbir çərçivəsində təşkil ediləcək mətbuat konfransları, brifinqlər və digər media tədbirlərinə qatıla biləcək, eyni zamanda tədbir məkanında yerləşən mətbuat mərkəzlərinə və media-zonalara giriş əldə edəcəklər. Yaşıl zonaya girişi təmin edən akkreditasiya növü üzrə isə qeydiyyat COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən aparılacaq və yaxın zamanda elan olunacaq.

UNFCCC tərəfindən müəyyən edilmiş tələb və prosedurlara əsasən təşkil olunan akkreditasiya prosesi Konvensiyanın rəsmi saytında mövcud olan qeydiyyat portalı vasitəsilə aparılır. Akkreditasiya çap və onlayn media orqanları, televiziya və radio təmsilçiləri, fotojurnalistlər və digər media nümayəndələrinə təqdim olunacaq. Elektron platformada qeydə alınan ərizələr UNFCCC tərəfindən qiymətləndiriləcək və akkreditasiya meyarlarına cavab verən media nümayəndələri təsdiq bildirişini aldıqdan sonra asanlıqla qeydiyyatı tamamlaya biləcəklər.

Hər bir COP konfransında olduğu kimi, bu il keçiriləcək COP29-a da geniş miqyasda media nümayəndələrinin qatılması gözlənilir. Bu səbəbdən, media iştirakçılığının səmərəli təşkilinin təmin edilməsi və bütün lazımi texniki hazırlıqların icrası üçün müraciətlərin qısa müddət ərzində təqdim edilməsi tövsiyə olunur.

Prosedurla bağlı daha ətraflı məlumat əldə etmək üçün **mediaaccreditation@cop29.az** elektron ünvanına müraciət oluna bilər.

# Qərbi Azərbaycan İcmasında hesabat iclası keçirilib





**Qərbi Azərbaycan İcmasında yerli rayon icmalarının 2024-cü ilin birinci yarımilliyi üçün hesabat iclası keçirilib.**

İcmadan AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli hazırda Qərbi Azərbaycanın bütün ərazilərini proporsional şəkildə əhatə edən 21 yerli icmanın fəaliyyət göstərdiyini, həmin rayonları təmsil edən nüfuzlu şəxslərin ictimai əsaslarla 5 il müddətinə icma sədri vəzifəsinə təyin olunduqlarını deyib.

O diqqətə çatdırıb ki, hesabat dövründə yerli icmalar məlumatlandırma və digər istiqamətdə verilən tapşırıqların öhdəsindən gəlib, ata-baba yurdlarımıza geri qayıdış uğrunda Qərbi Azərbaycan İcmasının ətrafında sıx birləşməyə və birgə çalışmağa davam ediblər. Bu ilin altı ayı ərzində yerli icmalar tərəfindən bir çox iş görülüb, təşkilatlanma, strukturların formalaşdırılması, əhali qrupları ilə əlaqələrin yaradılması, onların arasında kommunikasiyanın gücləndirilməsi, Qərbi Azərbaycan həqiqətlərinin təbliği istiqamətində birlikdə, ardıcıl və məqsədyönlü şəkildə tədbirlər həyata keçirilib. İcma üzvlüyünə qəbul olunmaq üçün 8000 nəfərin müraciətləri toplanıb və 7000-dən çox insana üzvlük vəsiqələrinin verilməsi artıq başa çatdırılıb.

İcma sədri qeyd edib ki, təşkilatlanma ilə yanaşı, ən vacib məsələlərdən biri də 1987-1991-ci illərdə Ermənistan SSR-dən qovulmuş, geri qayıdış hüquqlarından məhrum edilmiş azərbaycanlı əhalinin siyahısının tərtib olunması, onların şəhərlər, rayonlar, qəsəbələr, kəndlər, ailələr üzrə təsnifatlaşdırılması işləri, demək olar, tam başa çatdırılıb. Müəyyən olunub ki, deportasiya edilmiş 300 minədək əhali Azərbaycanın 58 rayonunda məskunlaşıb, bir qismi isə xarici ölkələrə köç etmək məcburiyyətində qalıb. Xatırladılıb ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində Keşkənd icmasının sədri, professor Mahirə Hüseynovanın rəhbərliyi ilə Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi yaradılıb.

Tədbirdə digər çıxış edənlər bildiriblər ki, yerli icmalar Qərbi Azərbaycan İcmasının Aparatı tərəfindən təşkil olunan ümumi xarakterli tədbirlərdə fəal iştirak ediblər.

Bundan əlavə, ayrı-ayrı icmaların rayonlar və kəndlər üzrə görüşləri keçirilib, bu görüşlərdə icmanın fəaliyyəti, görülən işlərin təhlili, qarşıda duran vəzifələrin müzakirəsi aparılıb.

Məlumat üçün bildirək ki, Qərbi Azərbaycan İcmasının fəaliyyətinin geniş işıqlandırılması məqsədilə yerli icmaların sosial şəbəkə hesabları yaradılıb, seçilmiş nümayəndələr, ziyalılar, sadə vətəndaşlar Qərbi Azərbaycan həqiqətləri barədə məlumatların ictimaiyyətə çatdırılması işlərinə fəal qoşulublar.

İcma tərəfindən Qərbi Azərbaycan kökənli şəhidlər haqqında məlumatların toplanılması istiqamətində də böyük işlər görülüb. "Qərbi Azərbaycan şəhidləri" kitabının birinci cildi hazırlanaraq çap üçün mətbəəyə təqdim edilib. Eyni zamanda, Qarakilsə rayon icması tərəfindən "Qarakilsə şəhidləri", Qafan rayon icması tərəfindən "Qafan şəhidləri", Mehri rayon icması tərəfindən "Mehri şəhidləri", Basarkeçər rayon icması tərəfindən "Basarkeçər alimləri", "Basarkeçər rayonu ərazisində mikrotoponimlər", "Basarkeçər şəhidləri" adlı kitablar çapa hazırlanır.

Qərbi Azərbaycanın ayrı-ayrı rayon və kənd icmalarının öz təşəbbüsləri ilə bir sıra görüşlər təşkil ediblər. Bu sırada Karvansaray, Çəmbərək rayonlarının birgə təşkil etdikləri icma üzvlərinin görüşünün, Böyük Qarakilsə rayonunun Arçut kənd orta məktəbinin 100 illiyi, Çəmbərək rayonunun Ağbulaq kənd orta məktəbinin 100 illiyi, Basarkeçər rayon Daşkənd icmasının toplantısı, Amasiya rayonunun Ellərkənd icmasının görüşünü qeyd etmək olar.

Ümumilikdə yerli icmalar tərəfindən cari ilin altı ayı ərzində 58 tədbir keçirilib. Onlardan 1-i fotosərgi (Qarakilsə rayonunun Dəstəgird kəndi), 11-i kitab təqdimatı, 12-si icma görüşü, 34-ü isə digər mövzulara həsr olunmuş digər tədbirlərdir.

# Azərbaycan - NATO əməkdaşlığı bundan sonra da hər iki tərəf üçün faydalı olacaq

**İyulun 2-də müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının qərargah rəisinin müavini general-mayor Stefan Fiks ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Qərargah rəisi Stefan Fiksi ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib, NATO ilə münasibətlərin cari vəziyyətinin yüksək səviyyədə olduğunu bildirib.

Azərbaycan-NATO əməkdaşlığının bundan sonra da hər iki tərəf üçün faydalı olacağı və səmərəli görüşlərin davam etdiriləcəyi əminliklə qeyd olunub. NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində Şimali Atlantika Alyansının bölmələrimizin hazırlığına böyük töhfə verdiyini bildirən general-polkovnik K.Vəliyev bunun yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

General-mayor S.Fiks isə öz növbəsində Azərbaycana növbəti səfərindən məmnun olduğunu qeyd edib. Azərbaycan ilə qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Ordusunun hərbi qulluqçularının sülhməramlı missiyalarda, eləcə də NATO ilə tərəfdaşlıq çərçivəsində digər sahələrdə peşəkar fəaliyyətinin müsbət qiymətləndirildiyi qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Xalqımızın qədim tarixini özündə yaşadan məkan

**AMEA-da Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtıdır" mövzusunda respublika elmi konfransı keçirilib.**



Elmi konfransda çıxış edən institutun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə 2022-ci ildə Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildiyini xatırladıb. Bu il Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında isə Şuşa şəhərinin 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsini diqqətə çatdırıb. O, bu qərarın müsəlman dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti olduğunu vurğulayıb.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən Qarabağın, o cümlədən Şuşanın erməni işğalından azad olunduğunu qeyd edən direktor hazırda həmin ərazilərdə aparılan tikinti-quruculuq işlərinə diqqət çəkib. Vurğulayıb ki, dövlətimizin başçısının rəhbərliyi ilə Şuşa şəhərinin qısa müddət ərzində yenidən qurulması, həyatın bu qədim yurdumuza qaytarılması, eyni zamanda tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan intensiv işlər, Şuşanın beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsi islam dünyası tərəfindən də yüksək dəyərləndirilir.

"Qarabağın incisi, Azərbaycanın göz bəbəyi, xalqımızın qədim tarixini özündə yaşadan Şuşa - mədəniyyətimizin mərkəzi, milli incəsənətimizin beşiyidir", - deyən alim bu qədim şəhərin tarixi, musiqi mühiti və mədəniyyətindən ətraflı bəhs edib. Bildirib ki, milli memarlıq üslubu ilə seçilən, Orta əsr şəhərsalma sənətinin qiymətli abidəsi hesab edilən Şuşa həm də özünəməxsus memarlığı ilə fərqlənir. Azərbaycanın mədəniyyət məbədi olan bu qədim şəhər tarixi abidə, nadir və bənzərsiz sənət incisidir.

AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə Şərqin konservatoriyası, muğamımızın beşiyi adlanan Şuşanın təsviri incəsənət və dekorativ tətbiqi sənət ənənələri ilə də məşhur olduğunu söyləyib. O, Şuşa şəhərinin tarixən Qarabağın əsas xalçaçılıq mərkəzlərindən biri olduğunu vurğulayıb, həmçinin burada şəbəkə sənətinin bədii məktəbinin formalaşdığını qeyd edib.

Direktor eyni zamanda institutun əməkdaşı olan akademik Zemfira Səfərovanın "Azərbaycanın musiqi qalası - Şuşa" kitabının ərəb dilində Əlcəzairdə nəşr olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu nəşrdə Şuşanın Azərbaycan, Şərq və bütövlükdə dünya mədəniyyəti üçün əhəmiyyətindən söz açılır, Azərbaycanın görkəmli musiqiçiləri, bəstəkarları və ifaçıları haqqında ərəb ictimaiyyətinə müfəssəl məlumat verilir.

Tədbirdə professor Sevil Fərhadova "Şuşa mədəniyyətində muğam yaradıcılıq prosesində ritmik həyat dairələri"nin yaşanması", sənətşünaslıq üzrə fəlsəfə doktorlarından Ramil Quliyev "Mir Mövsün Nəvvab: Azərbaycan art-terapiyasının banisi kimi", Aslan Xəlilov "Şuşalı memar Kərbəlayi Səfixan Qarabağinin həyat və yaradıcılığı", Afaq Hüseynova "Məşhur şuşalılar silsiləsində - Böyükağa Hüseynov", Nərminə Ağayeva "Şuşa ədəbi-mədəni mühitində maarif və mədəniyyətin yeni ənənələri", Nəzmin Cəfərova "Şuşada müasir muzey quruculuğu: muzeylər "yaşıl dünya"nın keşiyində" adlı məruzələrlə çıxış ediblər.

Konfransda həmçinin "XXI əsrdə nəşr edilən Şuşa haqqında tarixi kitablar", "Heydər Əliyevin Şuşa fəaliyyəti", "İslam mədəniyyətinin paytaxtı Şuşada müasir mədəni inkişaf", "Şuşa regionunun mövcud mədəni turizm potensialı", "Şuşa muğam məktəbinin inkişaf yolları", "Müasir Qarabağ mədəni mühitinin yeni reallıqları" mövzusunda məruzələr dinlənilib.

Məruzələrdə Şuşanın tarixi keçmişindən, ədəbiyyat, incəsənətimizə böyük töhfələr vermiş şuşalı sənətkarların zəngin irsindən, Şuşa şəhərinin mədəniyyət paytaxtına çevrilməsi istiqamətində görülən işlərdən, Qafqazın mədəniyyət tarixində Şuşa şəhərinin yerindən bəhs olunub.

*"Azərbaycan"*

# Ağsuda təsərrüfatların 90 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib

**"Onlayn Azərbaycan" layihəsi çərçivəsində "Aztelekom" MMC Ağsu rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradıb.**



Artıq Ağsu şəhərində şəbəkənin tikintisi başa çatdırılıb. Şəhər mərkəzində 7483 təsərrüfatdan 4119 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır.

Rayonun Yenilik, Elabad, Pirhəsənli, Ülgüc, Navahi, Qaraməmmədli, Ağarx, Maşadqanlı, Ərəbuşağı, Daşdəmirbəyli, Bozavand, Qarabağlı və digər kəndlərində 8925 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatıb.

Ümumilikdə rayonda mövcud təsərrüfatların 90 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 6274 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam edir.

# Alman şirkəti Azərbaycandan Avropaya qaz ixracının yeni yollarını arayır

**Keçən ay Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə VNG şirkəti arasında imzalanan Anlaşma Memorandumu təbii qaz və bərpaolunan enerji mənbələri sahələrində əməkdaşlığın genişləndirilməsinə yol açır.**




Hələ iyunun əvvəlində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən forumda bildirilmişdi ki, Almaniyanın VNG şirkəti gələcəkdə SOCAR tərəfindən hasil olunan qazı satacağına ümid edir. Bunu "VNG Handel & Vertrieb GmbH" şirkətinin idarəedici direktoru Konstantin Herzoq Von Oldenburq forumda "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu" mövzusuna həsr olunan panel müzakirədə demişdi: "Biz qaz idxalı və topdan ticarəti sahəsində fəaliyyət göstərməklə, ildə təqribən 15-18 milyard kubmetr qaz satırıq. Mən qaz balansından danışmıram, söhbət Almaniya və qonşu ölkələrdə fiziki satışlardan gedir. Biz əvvəllər Almaniyaya Rusiya və Norveç qazını idxal edirdik. Bu ildən Əlcəzair qazının idxalına başladıq və gələcəkdə portfelimizi SOCAR-ın hasil etdiyi qazla tamamlayacağımıza ümid edirik".

Şirkətin idarəedici direktoru gələcəkdə mavi qazın "yaşıl hidrogen"ə çevriləcəyi məsələsinə də toxunmuşdu. "Biz bunun mümkün yollarını axtarırıq. Mən inanıram ki, təbii qazdan ilk olaraq mavi qaza, daha sonra "yaşıl qaz"a ehtiyacımız olacaq. Qaz resursları bitməkdədir. Azərbaycandan Avropaya qaz ixracının yeni yollarını düşünməliyik", - deyə Konstantin Herzoq Von Oldenburq qeyd etmişdi.

Bakı Enerji Həftəsindən az sonra isə SOCAR-la Almaniyanın aparıcı enerji şirkətlərindən biri olan VNG ilə sözügedən Anlaşma Memorandumu imzalandı. Anlaşma Memorandumunun dayanıqlı enerji həllərinin inkişafına və beynəlxalq əməkdaşlığın təşviqinə töhfə verəcəyinə inam var. Belə ki, həmin sənəd təbii qazın təchizatı imkanlarının araşdırılması və qaz infrastrukturundan istifadə üzrə təcrübə mübadiləsini nəzərdə tutur. Memoranduma əsasən, tərəflər bərpaolunan enerji və karbonsuzlaşdırılmış qazlara keçidi nəzərdə tutan layihələr üzrə əməkdaşlıq imkanlarını araşdıracaqlar.

Qeyd edək ki, VNG (Verbundnetz Gas Agbo - VNGn) mənzil qərargahı Leypsiqdə yerləşən qaz şirkətidir. VNG Almaniyada böyüklüyünə görə üçüncü qaz idxalçısı, ölkədə yeddinci ən iri enerji şirkətidir. Şərqi Almaniyada isə ən böyük enerji şirkətləri sırasında ikinci yeri tutur.

VNG-nin Saksoniya, Türingiya, Brandenburq, Berlin və digər yerlərdəki boru kəmərləri şəbəkəsinin uzunluğu 7000 kilometrdən çoxdur. Şəbəkə VNG-nin törəmə şirkəti tərəfindən idarə olunur.

VNG eləcə də ümumi tutumu 2,4 milyard kubmetr olan beş yeraltı qaz anbarını idarə edir. Bu anbarlar Bad-Lauxştadtda və Bernburqda yerləşir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Astarada banan, manqo, avakado yetişdiriləcək

**Avokado, manqo, marakuya, taiti lime, qreyfrut, pomela, pitaya, papaya və banan... Xaricdən ölkəmizə idxal olunan bu meyvələr artıq ölkəmizdə də yetişdiriləcək.**

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun xətti ilə ayrılan 1 milyon manat güzəştli kredit hesabına Astara rayonunda 130 hektar ərazidə bağ salınır. AZƏRTAC xəbər verir ki, iki mərhələdən ibarət layihə üzrə Astaranın Şüvü və Deqədi kəndləri ərazisində artıq 45 hektarda avokado, 10 hektarda yeni növ limon bağlarının salınması prosesi yekunlaşıb. Bir neçə ay əvvəl isə 2 hektar ərazidə banan ağacları əkilib.

Sahibkar Faiq Osmanlı bildirib ki, bağda soyuğa davamlı 3 növ banan tingi əkilib. "Açıq əraziyə uyğunlaşacağı təqdirdə biz böyük banan plantasiyaları salmaq niyyətindəyik. Banan indiyədək Azərbaycanda müxtəlif yerlərdə istixana şəraitində yetişdirilsə də, açıq sahədə bağ salınmayıb. Ümid edirəm ki, açıq sahədə banan yetişdirmək uğurlu olacaq və daxili bazarı bu məhsulla təmin edə biləcəyik. Təxmini hesablamalara görə, daxili bazar üçün 550 hektar banan sahəsi lazımdır. Belə olarsa, banan idxalının qarşısı da alınacaq", - deyə o əlavə edib.

Təsərrüfatda qurulan müasir sistem vasitəsilə açıq havada əkilən banan, manqo və avakado ağaclarını şaxtadan da qorumaq mümkün olacaq. Daha iki tropik meyvə - pitaya və papaya isə istixana şəraitində yetişdiriləcək. Bu məqsədlə artıq tikinti işlərinə start verilib. İstixananın tikintisi 2 ay ərzində yekunlaşacaq və tinglər əkiləcək. Faiq Osmanlı deyir ki, bağların qurulmasında, həm də müasir sistemlərin çəkilişində, texnika-aqreqat parkının əldə olunmasında dövlət də dəstək göstərir.

Sahibkar gələn ildən bağdan əldə ediləcək meyvələrin satışına və ixracına başlamağı planlaşdırır.

# Füzuli və Xocavənd rayonlarına mediatur təşkil olunub

**Füzuli və Xocavənd rayonlarına yerli jurnalistlər üçün mediatur təşkil olunub. AZƏRTAC xəbər verir ki, jurnalistlər əvvəlcə Füzuli şəhərində yeni tikilən binalarla, yaradılan şəraitlə tanış olublar.**

Sonra Füzuli rayonunda yerləşən məktəbdə brifinq keçirilib. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin köməkçisi Ümid İsazadə bildirib ki, işğal dövründə ərazilər minalarla çirkləndirildiyi üçün bu yerlərdə əvvəlcə təmizləmə işləri aparılıb, əsas infrstrukturun yaradılması həyata keçirilib. Bu işlərə Zəfər yolu, Füzuli-Hadrut yolu, Füzuli-Ağdam yolu və şəhərdaxili yol-kommmuniksiya şəbəkələri daxildir. Şəhər mərkəzi elektrik təchizatı ilə təmin olunub. Hazırda şəhərdə 822 ailə məskunlaşıb. Əhalinin məşğulluğu üzrə də addımlar atılıb. Buraya köçən əhalinin əmək qabiliyyəti təhlil olunur və mövcud vakansiyalar elan edilir. Eyni zamanda sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar da var.

Qeyd olunub ki, Füzuli şəhərinin baş planına əsasən, ərazidə sənaye zonası üçün sahə ayrılıb və yol-kommunikasiya xətlərinin çəkilişi davam etdirilir. Hazırda sənaye zonası layihələndirmə mərhələsindədir. İndi Füzuli şəhərində Özbəkistan tərəfindən inşa edilən 960 şagird yerlik məktəb, Qazaxıstan tərəfindən inşa olunan 600 yerlik Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Füzulidə peşə liseyinin, 240 yerlik uşaq bağçasının, 180 yerlik xəstəxananın layihələndirilməsi və tikintisi də nəzərdə tutulub. İnşa olunan 38 binanın ətrafında istirahət parkı salınıb. Bundan əlavə, mərkəzi parkın salınması da nəzərdə tutulub və torpaq işlərinə başlanılıb.

Hazırda Füzuli şəhərində 2-ci və 3-cü yaşayış məhəllələrinin layihələndirilməsi davam etdirilir və yaxın zamanlarda tikintisi nəzərdə tutulub. Füzulidə həmçinin 6 kəndin təməli qoyulub.



Ümid İsazadə qeyd edib ki, Hadrut və Tuğun böyük turizm potensialı var. Hadrutda məscidin tikintisi davam etdirilir. Yaxın zamanlarda yaşayış binalarının təmirinə, inzibati mərkəzin, klub icma mərkəzinin, müxtəlif ictimai iaşə binalarının tikintisinə başlanılacaq. Tuğda isə 30 evin bərpasına və ətrafda yaşıllıq zolaqlarının salınmasına, yol şəbəkəsinin, inzibati mərkəzin, bir neçə qeyri-yaşayış binasının, məktəb və bağçanın tikinti-bərpasına yaxın zamanlarda start veriləcək. Xüsusi nümayəndənin köməkçisi onu da bildirib ki, digər ərazilərdə olduğu kimi, Füzuli və Xocavənddə də mədəni-tarixi abidələrimiz erməni vandalizminə məruz qalıb. Daha sonra media nümayəndələri Xocavəndin Hadrut qəsəbəsində olublar.

# İran səfirliyi Azərbaycan dövlətinə təşəkkür edib

**"Azərbaycanda səfərdə olan və yaşayan İran vətəndaşlarına iyunun 28-də keçirilmiş prezident seçkilərində iştirak üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinə təşəkkür edirik".**

AZƏRTAC xəbər verir ki, bu fikir İranın Azərbaycandakı səfirliyinin yaydığı bəyanatda vurğulanıb. Qeyd olunub ki, İranda keçirilən prezident seçkilərinin birinci turunda seçicilər fəal iştirak ediblər.

"Səfirliklə əməkdaşlıq edərək iranlı seçicilərin seçkilərdə iştirakı üçün yaratdığı imkanlara görə Azərbaycana dərin təşəkkürümüzü bildiririk" - bəyanatda bildirilib.

Nəzərə çatdırılıb ki, prezident seçkilərinin ikinci turunda səsvermə iyulun 5-də saat 8:00 başlayacaq və saat 18:00-a kimi davam edəcək.

# Tarixin arxivinə gömülmüş qanunsuz rejimin tör-töküntüləri Azərbaycana qarşı bir sıra gülünc açıqlamalar verirlər

**"Tarixin arxivinə gömülmüş qanunsuz rejimin tör-töküntüləri son günlər Ermənistanda Azərbaycana qarşı bir sıra gülünc açıqlamalar verirlər".**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

"Hesab edirik ki, Ermənistanın öz ərazisində belə təxribatçı ünsürlərin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü təhdid edən fəaliyyətinə göz yumması onun Azərbaycanla sülh sazişi imzalaması istəyinin səmimiliyini sual altına salır. Ermənistan hakimiyyəti, hələ də özlərini qondarma adlar altında təqdim edən "nümayəndələrin" Azərbaycana qarşı fəaliyyətinə imkan yaratmamalıdır.

# Azərbaycanda müxtəlif dini icmaların hüquqları təmin olunur



**İyulun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Müqəddəs Taxt-Tacın rəsmi mətbuat qurumu olan "L'Osservatore Romano" qəzetinin jurnalisti Rossella Fabiani ilə görüşüb.**

Komitədən AZƏRTAC-a bildiriblər ki, R.Məmmədov qonağa Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin din siyasətinin prioritet istiqamətinə çevrilən tolerantlıq mühitinin qorunması və təbliği üçün həyata keçirilən tədbirlər haqqında danışıb. Qeyd edib ki, hazırda dinlərarası dialoqa töhfə verən Azərbaycanda müxtəlif dini icmaların hüquqları təmin olunmaqla yanaşı, onlara xüsusi diqqət və qayğı göstərilir. Bu yanaşmanı müxtəlif dinlərə aid tarixi-dini abidələrin bərpası və müvafiq istiqamətdə təşkil edilən beynəlxalq konfranslara münasibətdə görmək mümkündür.

Görüş zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bir sıra məscid və ziyarətgahlarla yanaşı, xristian və yəhudi abidələrinin bərpasına göstərdiyi dəstəyi vurğulayan Ramin Məmmədov bunun bəşəri dəyərlərə verilən önəmin təzahürü olduğunu deyib.

Rossella Fabiani bu səfərin onda Azərbaycan haqqında, ölkəmizin zəngin dini-mədəni irsi barədə daha dolğun təəssürat yaratdığını, xüsusilə alban xristian abidələrinin tarixini öyrənməyə geniş imkanlar verdiyini qeyd edib. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma, quruculuq işlərinin əhəmiyyətinə toxunan qonaq qayıdış prosesinin uğurla icra edilməsini yüksək qiymətləndirib. O, səfəri zamanı canlı şahidi olduğu Azərbaycandakı birgəyaşayış, qarşılıqlı etimad mühitinin dünyada nadir nümunələrdən birini təşkil etdiyini bildirib.

# *Türkiyə mediası:* Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin tikintisi sürətlə davam edir



**Türkiyənin "İhlas" xəbər agentliyi Azərbaycan hökumətinin dəstəyi ilə "Azərbaycan" məhəlləsinin tikintisinin davam etdiyi Kahramanmaraş şəhərindən reportaj hazırlayıb.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan" məhəlləsində evlər fəal templə tikilir" sərlövhəli materialda Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişiklikləri Nazirliyinin koordinasiyası ilə aparılan tikinti işlərinin yüksək keyfiyyətinə diqqət yetirilir.

Agentlik Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) nümayəndəsi Fərman Qurbanlıya istinadla 2023-cü ilin dağıdıcı zəlzələləri zonasında həyata keçirilən irimiqyaslı şəhərsalma layihəsinin həyata keçirilməsindən bəhs edib. Onun sözlərinə görə, Kahramanmaraşda salınan "Azərbaycan" məhəlləsində ümumilikdə 71 bina, o cümlədən mədəniyyət evi və məktəb tikilir. Həmçinin 328 pərakəndə satış məntəqəsinin yaradılması nəzərdə tutulur.

"Fəlakətin miqyası çox böyük idi. Qardaş Türkiyənin köməyinə ilk yetişən ölkə Azərbaycan oldu. İşlər nəzərdə tutulan qrafikə uyğun davam etdirilir", - deyə Qurbanlı bildirib.

"Azərbaycan" məhəlləsinin tikintisində iştirak edən mütəxəssislər bu gün şəhərin beş rayonunda fəal tikinti işlərinin davam etdiyi Kahramanmaraşın bərpasına verdikləri töhfəyə görə Türkiyə və Azərbaycan hökumətlərinə təşəkkür ediblər.



# Avro-2024





# Ronaldunun son Avropa çempionatı

**Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldu 1/8 finalda Sloveniyanı məğlub edərək növbəti mərhələyə adlamaqları haqqında danışıb. 39 yaşlı hücumçu 105-ci dəqiqədə penaltini dəqiq yerinə yetirə bilməsə də, penaltilər seriyasında rəqib qapıçı Yan Oblakı məyus etməyi bacarıb. O, matçdan sonra göz yaşlarını saxlaya bilməyib.**



Ronaldu bu gərgin oyunu belə şərh edib: "Əlbəttə, asan olmadı. Matç bu qədər uzandı, amma şansımızdan istifadə etməli idik. Əgər əlindəki şansı qaçırsan, bir daha belə imkan gəlməyəcək. Qol vurmadığıma görə ruhdan düşmüşdüm. Sloveniya millisinin qapıçısı Yan Oblak dünyanın ən güclü qapıçılarından biridir. O, komandasına hər cür kömək etdi. Özümü toparlaya bildim və komandamız qələbə üçün maksimum çalışdı. Bütün 120 dəqiqəyə dözdük və özümüzü itirmədik. Hər şeyə görə çox sağ olun. Sloveniya güclü və mütəşəkkil komandadır. Lakin əsas qəhrəman bizim qapıçımızdır".

Həmçinin forvard bu çempionatın onun üçün sonuncu olduğunu xatırladıb: "Bu, əlbəttə ki, mənim son Avropa çempionatım olacaq. Amma bu, məni narahat etmir. Çünki məni hərəkətə gətirən həvəsdir. Azarkeşlərimizi sevirəm. Darıxsam da, olmasam da, bu forma üçün hər zaman hər şeyimi verəcəm. Biz məsuliyyəti öz üzərimizə götürməliyik".

Xatırladaq ki, Avro-2024-ün 1/8 final mərhələsində Portuqaliya millisi Sloveniyaya penaltilər seriyasında qalib gəlib. Matçın gedişində Ronaldu penaltini qaçırsa da, penaltilər seriyasında Yan Oblakın qapısına qol vurmağı bacarıb.

# İtaliya Futbol Federasiyası cərimələndi

**İtaliyanın rəqabət orqanı Antitrust yerli futbol federasiyasını cərimələyib. Buna səbəb kimi federasiyanın hakim mövqedən sui-istifadə etməsi göstərilib.**



Qərara əsasən, federasiya 4 milyon avro cərimə ödəyəcək. İtaliya Futbol Federasiyası isə sanksiya tədbirini ədalətsiz hesab edir və inzibati məhkəməyə müraciət etmək niyyətindədir.

Qeyd edək ki, İtaliya Futbol Federasiyası 2015-ci il iyulun 1-dən gənclərin və həvəskarların yarışlarının təşkili zamanı digər ixtisaslaşmış birliklərin səlahiyyətlərini istisna edir və ya məhdudlaşdırır.

# Niderlanddan inamlı qələbə

**Dünən Almaniyada təşkil olunan futbol üzrə Avropa çempionatında Rumıniya və Niderland yığmaları arasında 1/8 final görüşü keçirilib.**



Münxendəki "Alyans Arena"da keçirilən, almaniyalı baş hakim Feliks Şvayerin idarə etdiyi qarşılaşma rumınların fəal pressinqi ilə başlayıb və ilk 15 dəqiqə onların üstünlüyü ilə keçib. Bundan sonra hollandlar təşəbbüsü ələ alaraq bir neçə təhlükəli hücumla yadda qalıblar. 20-ci dəqiqədə "narıncılar" Qodi Qakponun dəqiq zərbəsindən sonra hesabda önə çıxıblar - 1:0. Birinci hissə bu hesabla başa çatıb.

Matçın ikinci hissəsi də Niderland millisinin hücumları ilə başlayıb və 63-cü dəqiqədə Qakpo yenidən fərqlənib. Lakin VAR-ın müdaxiləsindən sonra bu qol ləğv edilib. Həvəsdən düşməyən Ronald Kumanın komandası rəqibə təzyiqi davam etdirib və ardıcıl həmlələr öz bəhrəsini verib - 83-cü və 90+3-cü dəqiqələrdə Doniel Malenin dublu sayəsində Niderland yığması 3:0 hesabı ilə inamlı qələbə qazanıb və növbəti mərhələyə adlayıb.

Qeyd edək ki, Niderland millisini böyük turnirlərin böyük uğursuzu saymaq olar. Komanda final və yarımfinaldakı məğlubiyyət sayı ilə belə imic formalaşdırıb. Mundiallarda üç final oynayan yığma iki dəfə yarımfinalda dayanıb. Sayca 11-ci dəfə Avropa çempionatına qatılan komanda 5 dəfə yarımfinal oynayıb. 1988-ci ildə Niderland çempionluq yaşayıb.

Rumıniya "Avro-2024"ə vəsiqəni seçmə mərhələdən qazanıb. Qrupu məğlubiyyətsiz başa vuran komanda finişə 1 tur qalmış Almaniya biletini əldə edib. Edvard Yordaneskunun baş məşqçisi olduğu yığma İsveçrə və İsraillə mübarizəni 1-ci yerdə tamamlayıb. "Üçrənglilər" İsveçrə, Belarus, Kosovo səfərlərində, həmçinin İsraillə ev matçında xal itirsə də, bu, onların qrup qalibi olmasına maneçilik törətməyib. 9-cu turda İsraili səfərdə 2:1 yenən Rumıniya Almaniyaya vəsiqə qazandıqdan sonra İsveçrəni qəbul edib. Bir qolla qalib gələn rumınlar 1-ci yeri də əldən verməyiblər.

Ötən çempionatdan kənar qalan "sarılar" final mərhələsinə qayıtmaq imkanı əldə ediblər. 8 il əvvəlki yarışın iştirakçısı olan Rumıniya tarixində 6-cı dəfə belə imkan qazanıb. Amma yığmanın qitə çempionatındakı nəticələri göz oxşayan deyil. 5 cəhdin dördündə qrupda qalan millinin yeganə uğuru "Avro-2000"lə bağlıdır. Həmin vaxt Portuqaliya, İngiltərə və Almaniya ilə "ölüm qrupu"na düşən "Cücələr" 1/4 finala adlasa da, İtaliya səddini keçə bilməyiblər. Dünya çempionatları isə Rumıniya üçün unudulmuş yarışdır. 7 dəfə mundiala qatılan komanda dörd dəfə 1/8, bir dəfə 1/4 finala qədər irəliləsə də, "DÇ-1998"dən sonra seçmə mərhələni keçə bilməyib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Kekdən açıqlamalar



**Sloveniya millisinin baş məşqçisi Matyaz Kek "Avro-2024"də Portuqaliyaya uduzduqları 1/8 final oyununu şərh edib.**

Mütəxəssis penaltilər seriyasında məğlub olduqları matçla bağlı bunları deyib: "Məğlub olanda sevinə bilmirsiniz. Məyusuq, amma bir tərəfdən də xoşbəxtik. Ümid edirəm, bu turnir Sloveniya futbolunun gələcəyi üçün başlanğıc olar. Portuqaliyanı təbrik edirəm. Penaltilər seriyasında necə oynamalı olduqlarını bilirlər".

## Ötən günün nəticələri

**Rumıniya - Niderland 0:3**
**Avstriya - Türkiyə 1:2**

# Koşta matçın ən yaxşısı seçildi

**"Avro-2024"ün 1/8 finalında Portuqaliya və Sloveniya yığmaları arasında keçirilən matçın ən yaxşı futbolçusu bəlli olub.**

Portuqaliya millisinin qapıçısı Dieqo Koşta görüşün ən yaxşı oyunçusu adına layiq görülüb.

Xatırladaq ki, Koşta penaltilər seriyasında rəqibin 3 zərbəsini dəf edib və 1/4 finala yüksəlmələrində böyük rol oynayıb.



# Ukraynalı futbolçuya qeyri-adi cəza verilib



**Ukrayna millisinin futbolçusu Viktor Tsıqankov Avropa çempionatında uğursuz çıxışa görə qeyri-adi cəza alıb. İspaniya "Jirona"sının vingerini həyat yoldaşı Romana cəzalandırıb.**

O, yarıciddi, yarızarafatla Almaniyadan qayıdan futbolçunu evin döşəməsini silmək cəzasına məruz qoyub. Romana cəzalandırılma mərasimini videoya çəkərək sosial şəbəkədə paylaşıb: "Avro-2024"ün səhvini yuyur".

Qeyd edək ki, Ukrayna millisi çempionatda 4 xalla qrup sonuncusu kimi mübarizəni dayandırıb.

*Fotoobyektivin gözü ilə*

# Bakı COP29-a hazırlaşır






*Bakıda noyabr ayında keçiriləcək COP29-la bağlı hazırlıq işləri davam edir. Bu mötəbər tədbirdə iştirak etmək üçün ölkəmizə gələcək minlərlə xarici qonağın qarşılanması üçün şəhərdə təmir-bərpa, abadlıq işləri görülür. Binaların fasadlarının, asfalt örtüyünün yenilənməsi, küçələrin səliqə sahmanına diqqət yetirilməsi ölkəmizin bu tədbirə nə qədər ciddi hazırlaşdığının göstəricisidir.*

**Foto İlham BABAYEVİNDİR**

# İstanbulda Azərbaycan və Türkiyə gənclərinin birgə konserti təşkil olunub





**İstanbulda "Türkiyə-Azərbaycan qardaşlığı və dostluğu" şüarı ilə konsert proqramı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Türkan Saylan adına Mədəniyyət Mərkəzində baş tutan konsert qardaş ölkədə fəaliyyət göstərən azərbaycanlı musiqi müəllimləri, "Xarıbülbül" Azərbaycan Vizyon Teatr Birliyinin üzvləri Nazlı Bağırova, Vüsalə Əsgərova və Fidan İsmayılova tərəfindən təşkil olunub.

Proqramda əvvəl Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, iki qardaş ölkənin şəhidlərinin xatirəsi yad edilib.

Tədbirdə çıxış edən "Tək Hədəfimiz Təhsil" Birliyinin rəhbəri Cem Yıldırımer Türkiyə ilə Azərbaycan arasındakı tarixin dərinliklərindən gələn dostluq və qardaşlıq münasibətlərinin dünya üçün bənzəri olmayan birlik, həmrəylik modeli olduğunu qeyd edib. Bildirib ki, ölkələrimiz arasındakı münasibətlər hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də sağlam təməllər üzərində inşa edilib və bu dəyərləri qoruyub-saxlamaq bizim ən ali vəzifəmizdir.

Konsertdə Azərbaycan və Türkiyə gənclərinin ifasında iki qardaş ölkənin xalq və bəstəkar mahnıları ilə yanaşı, Avropanın klassik musiqiləri də səsləndirilib.

# Qabal kəndində gənclərə Azərbaycan-Gürcüstan dostluğu barədə məlumat verilib



**Gürcüstanın Laqodexi rayonundakı Qabal kəndində fəaliyyət göstərən "Qabal İnkişaf Mərkəzi"ndə müəllimlər, məktəb şagirdləri ictimai-siyasi xadimlər, şair və yazıçıların iştirakı ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir "Qabalın tarixi və mədəni irsi" mövzusuna həsr olunub. Mərkəzin direktoru Yavər Məmmədov bildirib ki, belə görüşlərdə uşaqlarla Gürcüstanda yaşayan soydaşlarımızın tarixi, eləcə də Azərbaycan dövlətinin və xalqının tarixi, ədəbiyyatı, mədəniyyəti və s. barədə məlumatların verilməsi, fikir mübadiləsinin aparılması, gənc nəslin öz tarixlərini, milli kimliyinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin milli köklərimizə bağlılıq, vətənpərvərlik, xalqına sədaqət ruhunda tərbiyə olunması qarşımızda duran ən ümdə vəzifələrdəndir", - deyə Y.Məmmədov bildirib.

Şair Yunis Novruz uşaqlara Qabal kəndinin yaranma tarixindən, Azərbaycan və gürcü xalqlarının tarixi dostluq münasibətlərindən söhbət açıb. O, "Qabal İnkişaf Mərkəzi"nin fəaliyyəti dövründə yerli azərbaycanlı icmasının inteqrasiyasında mühüm rol oynayacağına əminliyini ifadə edib. Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlərdən bəhs edən natiqlər vurğulayıblar ki, Ulu Öndər Heydər Əliyevin Gürcüstanla əlaqələrə böyük önəm verirdi.

Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin də Gürcüstan ilə əlaqələrə çox böyük önəm verdiyini qeyd ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Çıxışlarda SOCAR-ın dəstəyi ilə Gürcüstanda və Qabalda həyata keçirilən layihələrdən də söz açılıb.

SOCAR-ın dəstəyi ilə Qabalı kəndində uşaq bağçasının istifadəyə verildiyi qeyd olunub.

Kənd əhalisi Gürcüstanda yaşayan soydaşlarımıza göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Xocalıda xeyli sayda döyüş sursatı aşkar edilib




**Qarabağ bölgəsində ərazinin mühəndis kəşfiyyatının aparılması zamanı Ermənistan silahlı birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus xeyli sayda döyüş sursatı ilə dolu yeşiklər və artilleriya mərmiləri aşkar edilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində Xocalı rayonu ərazisində aşkarlanan sursat və mərmilər müsadirə edilib. Azad olunan ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
21-ci seçki
Parlament seçkiləri demokratiyanın növbəti təntənəsi olacaq

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.07.2024-cü il tarixi saat 23:00-dan etibarən bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 04.07.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tabeliyində olan "Bibiheybət" GTZ-nun kompleks istehsalat sahəsində (gəmi istehsalat sahəsində) yerləşən 6 kV-luq 2860 kva y/stansiyada qurğu və avadanlıqların quraşdırılması (mal-materialla birlikdə) xidmətinin satın alınması məqsədilə

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 iyul 2024-cü il saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


# Fransada irimiqyaslı mitinqlər başlayıb

## Antifaşistlər millətçilərin uğuruna görə iğtişaşlar törədirlər




**Fransada keçirilən parlament seçkilərində millətçilər liderlik edir, buna görə minlərlə solçu partiyaların tərəfdarları və antifaşistlər ölkə boyu mitinqlərə çıxıb, onlardan bəziləri dükanları dağıtmağa və zibil qutularını yandırmağa başlayıb.**

Parlament seçkilərinin ilk turunda səs çoxluğu qazanan millətçi "Milli Birlik" partiyasına qarşı keçirilən nümayiş minlərlə insanı Parisin mərkəzində yerləşən Respublika meydanına toplayıb.

"Huffington Post France" qəzeti yazır ki, onları "qəzəb və kədər" birləşdirir. Bəzi etirazçılar mağaza və kafeləri dağıdıb və xüsusi tüstü fişəngləri yandırıblar, polislə toqquşmalar baş verib.

Fransanın digər iri şəhərlərində də - Lion, Lill, Renn və Nantda minlərlə etirazçının iştirakı ilə mitinqlər keçirilib, iğtişaşlar törədilib. Aksiya iştirakçıları antifaşist mahnılar oxuyub, zibil qutularına od vurublar. Etirazçılar Lionun Croix-Rousse rayonunda Orange mağazasını dağıdıblar, Societe General bankının filialı zərər çəkib. Xəsarət alanlar və həbslər barədə məlumat verilmir. Zorakılığın səviyyəsi isə artır. Paris və Nantda isə solçu partiyaların tərəfdarlarının kortəbii mitinqləri keçirilir.

Xatırladaq ki, iyunun 30-da bu ölkədə növbədənkənar parlament seçkilərinin birinci turu keçirilib. İlkin rəsmi məlumatlara görə, Marin Le Penin lideri olduğu millətçi "Milli Birlik" partiyası 33,1 faiz, solçu Yeni Xalq Cəbhəsi 28 faiz, "Birgə" prezident koalisiyası isə 20 faiz səs toplayıb. Seçkilərdə iştirak 66,7 faizə çatıb.

Proqnozlara görə, iyulun 7-də seçkilərin ikinci turunda "Milli Birlik" 240-dan 310-a qədər, Yeni Xalq Cəbhəsi 150-dən 200-ə qədər, Makron tərəfdarları isə 70-dən 120-yə qədər yer ala bilər. Mütləq çoxluğu əldə etmək üçün partiyaya 289 mandat lazımdır.

Fransada millətçilər İkinci Dünya müharibəsindən sonra ilk dəfə hakimiyyəti ələ keçirə bilərlər. "Milli Birlik" partiyasının rəhbəri Jordan Bardella "bütün fransızların baş naziri" olmaq niyyətini açıqlayıb. O qeyd edib ki, iyulun 7-də keçiriləcək seçkilərin ikinci turu Beşinci Respublikanın bütün tarixində ən həlledici turlardan biri olacaq.

Bu arada, Paris meri Ann İdalqo "Ouest-France" qəzetinə müsahibəsində Makronu Olimpiada bayramını pozmaqda ittiham edib. O deyib ki, Fransa prezidenti parlamenti buraxdığına və Yay Olimpiya Oyunları ərəfəsində növbədənkənar seçkilər elan etdiyinə görə vətəndaşlara hörmətsizlik edir.

Paris meri hesab edir ki, Fransa Prezidenti Emmanuel Makron Milli Assambleyanı buraxmaqla və növbədənkənar seçkilər təyin etməklə qarşıdan gələn Olimpiya Oyunlarının bayramını korlayıb: "Olimpiada başlamazdan əvvəl parlamentin buraxılması xəbərinə son dərəcə mənfi reaksiya verdim. Bunun sonra baş verəcəyinə əmin idim, lakin prezident fransızlara hörmətsizlik jesti ilə bütün bayramı məhv etdi".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

İlham və Tural İbrahimovlar, Namiq və Zəfər Azadovlar, Hacı Müşfiq və Rafiq Hüseynovlar, Rza, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bərdə Regional Ədliyyə İdarəsinin əməkdaşı Eldəniz İbrahimova əzizi

**ƏLİ MƏHƏMMƏD OĞLU MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 2945
Sifariş 1455

Qiyməti 60 qəpik